www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 iyul 2017-ci il Çərşənbə № 145 (6759) Qiymətı 60 qəpik

**Xəbər**

## Ağdaşda həkim və sınıqçı səhvi faciə ilə bitdi: 9 yaşlı uşaq öldü

yazısı səh.10-da

**Gündəm**

## Bakıda zibil çənində güclü partlayış: xəbərdarlıq, yoxsa...



Rəsmi orqanlar araşdırma aparır; **ekspert:** "Bakının mərkəzi rayonunda partlayıcı qurğu işə düşürsə..."

yazısı səh.5-də

## Krımdan Qarabağa uzanan yol: sanksiya sırası Ermənistana da çatacaq

yazısı səh.11-də

## "Sevil massivi"nin vəzifəli şəxslərinə hökm oxundu - məntiqi sonluq

yazısı səh.10-da

## Praqada öldürülən iş adamının nəşi bu gün Bakıya gətiriləcək - müəmmalı qətlin istintaqı davam edir

yazısı səh.3-də

## Ermənistandan Azərbaycana "25 illik müddət" təxribatı: təbliğat savaşında düşmən uydurması

yazısı səh.9-da

## Dilqəmlə Şahbaz 3 ildir erməni girovluğundadır

yazısı səh.3-də

## Alıcıların cibinə girən "yalançı" tərəzilər: problemdən çıxış yolu nədir?

yazısı səh.12-də

## Həkim və dietoloqdan xəbərdarlıq: "İsti havalarda ət yeməklərindən qaçın!.."

yazısı səh.14-də

## Bakı Zooparkında qiymətli heyvanlar istidə necə qorunur - reportaj

yazısı səh.13-də

# Rusiya imperiya siyasətini cilalayır

# BAKIYA VƏ İRƏVANA SİLAH, QARABAĞA RUS ƏSGƏRİ - KREMLİN TƏZƏ "BALANS" SİYASƏTİ

Azərbaycana növbəti partiya yeni silahlar göndərən Rusiya eyni gündə Ermənistanla birgə hərbi təlim keçirib və təlim bəhanəsi ilə işğal altındakı Dağlıq Qarabağa rus sərhədçiləri keçib; "Moskva yeni müharibədə maraqlıdır" - iddia...




yazısı səh.8-də

# Nazir müavinləri gedir, ciddi ixtisarlar başlayır

"Hökumət mətbəxinə" yaxın olan YAP funksioneri ciddi struktur islahatlarının anonsunu verdi; "Yeni Müsavat" bu haqda nə yazmışdı?

yazısı səh.4-də



*Ayaz Mütəllibov:*

## "Savaş başlasa, Türkiyə bizə dəstək verəcək, buna inanıram"

yazısı səh.7-də



Arzuxan Əlizadə

## AMİP-in sədr əvəzi müxalifətin Alxanlıya getməməsinə izahat verdi

yazısı səh.4-də



## Eldar Mahmudovun ətrafında həlqə daralır, yoxsa...

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 145 (6759) 12 iyul 2017



## Bakıdan İrəvana mesaj: "Hər an müharibəyə hazırıq"

**"Azərbaycan yeni silah-sursat və döyüş texnikalarının alınmasını davam etdirir. Ermənistan tərəfi bundan narahatdır. Çünki Ermənistan və onun havadarları Azərbaycana hərbi yoldan başqa seçim qoymurlar".**

**Bunu azvision.az-a ehtiyatda olan polkovnik, uğurlu Horadiz əməliyyatının komandiri Şair Ramaldanov deyib.** Polkovnik bildirib ki, güc vasitəsilə torpaqların işğaldan azad edilməsi gündəmdədir: "Erməni işğalçıları tərəfindən 2 yaşlı Zəhranın və nənəsinin qətlə yetirilməsinə bütün dünya münasibət bildirdi. Bu hal onu göstərir ki, Ermənistandan sülh gözləmək mümkün deyil. Ermənistan hələ də dinc sakinlərə atəş açır. Aprel hadisələri də dinc sakinlərin atəşə məruz qalmasından sonra baş vermişdi. Nəticədə ordumuz əks həmlə edərək bir neçə strateji yüksəkliyi işğaldan azad etdi və düşmənə ağır zərbələr vuruldu".

**Ş.Ramaldanovun fikrincə, Ermənistan təxribata əl atmaqla danışıqlar prosesini pozmağa çalışır:** "Düşmən zamanı uzatmağa çalışır. Onlar anlamalıdırlar ki, bu hərəkətlərin sonu görünmür".

**Polkovnik qeyd edib ki, Azərbaycan öz torpaqlarını işğaldan azad etməyə və düşmən qüvvələrini darmadağın etməyə hazırdır:** "Ordumuz ən müasir silahlarla silahlanır. Bu, bütün dünyaya və Ermənistana bir ismarışdır ki, Azərbaycan güc yolu ilə Qarabağ məsələsi istənilən an həll edə bilər. Buna heç kimin şübhəsi olmasın".

## Bu gün Bakıda 31 dərəcə isti olacaq

**İyulun 12-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, gündüz yarımadanın bəzi yerlərində yağış yağacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən bildirilib ki, şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun Abşeron yarımadasında gecə 20-23, gündüz 27-32, Bakıda gecə 21-23, gündüz 29-31 dərəcə isti olacağı gözlənilir.**

Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət 70-80 faiz təşkil edəcək. Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 21-22, Zaqulba, Buzovna, Mərdəkan, Şüvəlanda 22-23, Türkan, Hövsan, Sahil, Şıxda 24-25 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında əsasən, dağlıq və dağətəyi rayonlarda şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25, gündüz 31-36, dağlarda gecə 12-17, gündüz 18-23 dərəcə isti olacağı gözlənilir. Tibbi-meteoroloji proqnoza gəlincə, iyulun 14-dək Abşeron yarımadasında iqlim normasına yaxın temperatur şəraiti və meteoroloji amillərin normal sutkalıq gedişi meteohəssas insanlar üçün əsasən əlverişlidir.

### Başsağlığı

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi**
**Ələsgər Süleymanova**
**dayısı Əhəd Qarayevin vəfatından**
**kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**
**ALLAH RƏHMƏT ELƏSİN.**

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# "Jurnalistlər evi"nin yanında yerüstü keçid tikiləcək

**"Bakının Bibiheybət qəsəbəsində, Yeni Salyan yolunda jurnalistlər üçün tikilən ikinci yaşayış binasının ərazisində yerüstü piyada keçidi tikiləcək". Bunu modern.az-a açıqlamasında Bakı Nəqliyyat Agentliyi (BNA) İctimai əlaqələr və maarifləndirmə şöbəsinin müdiri Mais Ağayev deyib.**



Onun sözlərinə görə, jurnalistlər həmin ərazidə heç bir zolağın olmadığı haqda agentliyə şikayət ediblər: "Bununla bağlı jurnalist həmkarlarımız bizə müraciət etdi və Bakı Nəqliyyat Agentliyinin əməkdaşları da əraziyə baxış keçirdilər. Müraciət edən jurnalistlər ərazidə piyada keçidinin, yəni "zebra"nın çəkilməsini istəyirdilər. Həmin yerdən də, bildiyiniz kimi, sürətli yol keçir. Bu səbəbdən orada zolağın çəkilməsi müvafiq hesab edilmədi. Lakin Bakı Nəqliyyat Agentliyi həmin ərazidə yerüstü piyada keçidinin inşa edilməsi ilə bağlı təklif irəli sürdü. Belə ki, ərazidə yaşayış var və xeyli sayda ailə mövcuddur. Orada yaşayan insanların təhlükəsizliyini təmin etmək məqsədilə yerüstü piyada keçidinin olması mütləqdir. Buna əsasən, Bakı Nəqliyyat Agentliyi təklifi hazırlayıb Nazirlər Kabinetindəki Yol hərəkəti Təhlükəsizliyi Komissiyasına müraciət etdi. Artıq təklifimiz komissiya tərəfindən qəbul edilib və müvafiq tapşırıqlar verilib. Yəqin ki, yaxın vaxtlarda həmin yerüstü piyada keçidinin inşasına başlanılacaq. Yəni jurnalistlərin ikinci binasının yerləşdiyi ərazidə yerüstü piyada keçidi tikiləcək".



## Ermənistanda Bakı konfetləri satılır

**Ermənistanda Azərbaycandan gətirilən konfetlər satılır. Qaynarinfo.az xəbər verir ki, erməni jurnalist Narinə Avetisyan Azərbaycandan gətirilən şirniyyatın Vanadzor şəhərinin mərkəzi bazarında satıldığı ilə bağlı məlumat yayıb. Onun sözlərinə görə, qonaqlıqların birində ona Azərbaycan konfetləri təklif edilib. Jurnalist konfetlərin haradan alındığı ilə maraqlandıqda ona mərkəzi bazarı göstəriblər.**

Jurnalist araşdırma zamanı müəyyən edib ki, Vanadzor şəhərinin mərkəzi bazarında Azərbaycan konfetləri satılaraq qurtarıb.

Qeyd edək ki, artıq bir neçə aydır Ermənistanın dövlət qurumları Azərbaycan istehsalı olan məhsulların ölkəyə daxil olması ilə bağlı araşdırma apardıqlarını bəyan ediblər.



## Bakıda siçan və siçovullar çoxalıb - səbəb

### "JEK"lər problemə baş qoşmaq istəmir

**Bakının müxtəlif rayonlarında sakinlər mənzillərə yol tapan siçan və siçovulların artmasından şikayətçidir. Qeyd olunur ki, köhnə binaların zirzəmilərində, zibilliklərdə və antisanitariyanın hökm sürdüyü digər yerlərdə məskunlaşan gəmiricilər mənzillərə soxulmağa başlayıblar.**

Ümumiyyətlə, müşahidələr əsasında şəhərdə siçan və siçovulların artdığı bildirilir. Maraqlıdır, Bakıda gəmiricilərlə mübarizə üçün hər hansı tədbir görülürmü?

Modern.az saytı məsələni aydınlaşdırmaq üçün Respublika Dezinfeksiya Mərkəzi ilə əlaqə yaradıb. Mərkəz əməkdaşının sözlərinə görə, hazırda gəmiricilərə qarşı deratizasiya tədbirləri aparılır. Lakin yalnız müqavilə olduğu halda bu mümkündür: "Səhiyyə və təhsil müəssisələri məcburi şəkildə bizim MMC-lərlə müqavilə bağlayır. Bu müqavilədə göstərilən müddət əsasında ayda iki və ya üç dəfə həmin ərazilərdə deratizasiya tədbirləri aparılır. Bundan başqa, hansısa müəssisə və ya təşkilat istəyərsə, eynilə bizimlə müqavilə bağlanılır və tədbirlər görülür. Təqribən üç-dörd il bundan qabaq "JEK"lər də bizim MMC-lərlə müqavilə bağlayırdı. Tutaq ki, Nizami rayonunun "JEK"i həmin ərazidə yerləşən dezinfeksiya şöbəmizlə müqavilə imzalayırdı. Nəticə olaraq Nizami rayonunda yerləşən bütün binalarda, yaşayış yerlərində deratizasiya və dezinfeksiya tədbirləri görürdük. "JEK"lər də buna görə müəyyən məbləğ ödəməli olurdu. Hazırda biz dövlət müəssisəsi olsaq da, "JEK"lər bizimlə müqavilə bağlamır. Dəfələrlə məktubla müraciət etsək də, müsbət cavab ala bilməmişik. Yəqin ki, hansısa maraqlar səbəbindən özəl müəssisələrlə işləməyə üstünlük verirlər. Bu da effekt vermir".

**Respublika Dezinfeksiya Mərkəzinin əməkdaşı qeyd edib ki, siçan və siçovulların artmasından narazı olan sakinlər tez-tez mərkəzə müraciət edirlər:** "Sakinlərdən bizə şikayətlər daxil olsa da, təsərrüfat birlikləri ilə müqavilə olmadan hər hansı tədbir görə bilmərik. Bu səbəbdən bunu sakinlərə izah edib rayon üzrə təsərrüfat şöbəsinin nömrəsini verərək, onlara yönləndiririk. Hansısa bina sakini fərdi olaraq "JEK"lərlə müqavilə bağlaya bilir. Bu zaman "JEK" işçiləri siçan və siçovullarla mübarizə üçün ərazini dərmanlayırlar".

Mərkəz əməkdaşı həmçinin siçan və siçovulların artmasına antisanitar şəraitlə yanaşı, isti havaların da səbəb olduğunu vurğulayıb.



## Qəzzafi devrilmədən öncə İsrailə zəng edib - şok

**Liviyanın mərhum lideri Müəmmər Qəzzafi 2011-ci ildə devrilmədən az öncə son ümid kimi İsrailə zəng edib.**

Axar.az xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Liviya Yəhudiləri Birliyinin lideri Rafael Luzon söyləyib. Onun sözlərinə görə, Qəzzafi ediləcək yardım qarşılığında Tel-Əvivə yəhudilərin hüquqlarını qoruyacağı və İsraillə barışacağına söz verib.

"Qəzzafi 2011-ci ildəki hadisələr zamanı mənə iki dəfə zəng edərək, İsraildən onu qurtarmağımı xahiş etməyimi istədi. Tələbini rədd etdim. Ona görə ki, bu, bazarlıq edilləsi məsələ deyildi. İsraillə sülh anlaşma ilə deyil, inancla olur", - deyə o qeyd edib.

## Qadını qonaq çağırıb zorlayan avtobus sürücülərinə hökm oxundu

**Bakıda 30 yaşlı qadını zorlamaqda, qanunsuz həbs etməkdə, seksual xarakterli hərəkətə məcbur eləməkdə təqsirli bilinən Tacəddin Zeynalov və Camal Tağıyevin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Lent.az-ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Rasim Sadıqovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hakimlər kollegiyasının hökmünə əsasən Tacəddin Zeynalov 8 il, Camal Tağıyev isə 6 il müddətində azadlıqdan məhrum ediliblər.**

Qeyd edək ki, hadisə ötən ilin dekabrında 4-cü mikrorayon, Mir Cəlal Paşayev küçəsində qeydə alınıb. 30 yaşlı Sahibə Məmmədova (ad və soyad şərti verilib) Nəsimi Rayon Polis İdarəsinə təcavüzə məruz qalması ilə bağlı müraciət edib. Bildirib ki, o, 65 nömrəli sərnişin avtobusunda həmin avtobusun sürücüsü Camal Tağıyevlə tanış olub. Bir neçə gün sonra isə Camal Tağıyevin evindəki qonaqlıqda iştirak edib. Qadın yeyib-içmək məclisində olarkən 61 nömrəli avtobusun sürücüsü, 1979-cu il təvəllüdlü Tacəddin Zeynalov ona qarşı qeyri-etik hərəkətlər edib. Bu zaman Sahibə Məmmədova ona etirazını bildirib. Bundan sonra sürücülər Sahibəni zorlayıblar.

Tacəddin Zeynalov Cinayət Məcəlləsinin 145.2.4-cü (qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə), 149.2.1-ci (zorlama, bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə), 149.2.4-cü (zorlama, zərərçəkmiş şəxsi və ya başqa şəxsləri öldürmə və ya sağlamlığa ağır zərər vurma hədəsi ilə, habelə xüsusi amansızlıqla törədildikdə, 151-ci (seksual xarakterli hərəkətlərə məcbur etmə) və 29.150.1-ci (seksual xarakterli hərəkət etməyə cəhd) maddələri ilə, Camal Tağıyev isə yalnız 149.2.4-cü maddəsi ilə ittiham edilib.

YENİ MÜSAVAT
N 145 (6759) 12 iyul 2017

# Dilqəmlə Şahbaz 3 ildir erməni girovluğundadır

## İsgəndər Həmidov: “Dilqəmlə Şahbazın azad olunması Qarabağın azad olunması qədər prinsipial məsələdir”

**Əzizlərinin məzarını ziyarət etmək üçün Kəlbəcərdəki doğma kəndlərinə gedərkən işğalçı Ermənistan ordusunun əsgərləri tərəfindən girov götürülən Dilqəm Əsgərovun və Şahbaz Quliyevin girov götürülməsindən, Həsən Həsənovun isə qətlə yetirilməsindən 3 il keçdi.**

2014-cü ilin 11 iyulunda Kəlbəcərdən olan Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev doğma torpaqlarında Ermənistanın işğalçı əsgərləri tərəfindən girov götürülüblər. Həsən Həsənov isə qətlə yetirilib. İşğal altındakı Dağlıq Qarabağda həmvətənlərimiz üzərində qurulan “məhkəmə”nin qərarı ilə D.Əsgərov ömürlük, Ş.Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilib. Həsən Həsənovun nəşi 3 ay sonra-2014-cü il oktyabrın 2-də qarşı tərəfdən alınıb. H.Həsənov həmin il oktyabrın 4-də Bakının Binəqədi qəbiristanlığında dəfn edilib.

Dünən Həsən Həsənovun qohumları, yaxınları onun ölümünün 3-cü ilini məzarı önündə qeyd ediblər.

**Şahbaz Quliyevin qardaşı İlham Quliyev modern.az-a laqeydlikdən gileylənib:** “Üç il oldu, beş il oldu, bu, artıq heç kimi maraqlandırmır. Onların girov düşmələri, ermənilər tərəfindən qanunsuz həbs olunmaları yaddan çıxıb. Yenə əvvəllər yığışıb yalandan da olsa, vəd verirdilər, indi Dilqəm və Şahbazın adını belə çəkən yoxdur. Tam unudulublar”.



Ermənistanın heç bir beynəlxalq hüquq normasına məhəl qoymayaraq Dilqəm Əsgərovu və Şahbaz Quliyevi hələ də girov saxlamasında beynəlxalq birliyin laqeydliyinin böyük rolu var. Ciddi qınağa tuş gəlməyən işğalçı Ermənistan dünyanın gözü qarşısında iki dinc Azərbaycan vətəndaşını öz doğma kəndlərinə getdikləri üçün girov saxlayır.

**Azərbaycanlı girovların azad edilməsinin ləngiməsi ailə üzvləri ilə yanaşı, ictimaiyyətdə narazılıqla qarşılanıb. Sabiq daxili işlər naziri İsgəndər Həmidov hesab edir ki, Kəlbəcərdə ermənilərin girov götürdükləri Dilqəm Əsgərovun, Şahbaz Quliyevin girovluqdan azad edilməsini hansısa beynəlxalq təşkilatlardan gözləmək özünü aldatmaqdır:** “Beynəlxalq təşkilatlar indiyə qədər bir qarış da olsun torpağımızın azad edilməsində yardımçı olmadıqları kimi, Dilqəmlə Şahbazın da azad edilməsinə nail olmayacaqlar. Mən Dilqəm və Şahbaz girov götürülən zaman, hadisədən cəmi bir-iki gün sonra bəyan etmişdim ki, o qəhrəman qardaşlarımızı düşmən əsarətindən geri almağın bir yolu var. Hansısa beynəlxalq təşkilata ümid etmək əvəzinə yeganə olan bu yoldan istifadə edilməlidir. Bir daha bəyan edirəm ki, kimin nə deməsindən, hansı təhlükəni qabartmasından asılı olmayaraq, Azərbaycan məhz bu insidentdən sonra Qarabağda antiterror əməliyyatına başlamalıydı. Antiterror əməliyyatına başlamağa hansısa səbəblərdən getmirlərsə, heç olmasa xüsusi xidmət orqanlarını və şir ürəkli oğullarımızı hərəkətə gətirməklə əməliyyat keçirib bir neçə yüksək çinli erməni hərbçisini ələ keçirmək, girovlarla dəyişmək lazım idi. Dilqəmlə Şahbazın azad olunması Qarabağın azad olunması qədər prinsipialdır Azərbaycan üçün. Nə qədər ki, məsələyə bu cür yanaşılmır, Qarabağ kimi hər iki qardaşımız da erməni əsarətində qalacaq. Azərbaycan dövləti nəyin bahasına olur-olsun Ermənistanı girovları azad etmək məcburiyyəti qarşısında qoyan bir ciddi əməliyyat keçirməlidir”.

❑ **Etibar SEYİDAĞA**



Novruzəli Orucov

# İşdən çıxarılan generalın oğlu həbs olundu

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini Novruzəli Orucovun oğlu yenidən həbs olunub. Əvvəllər çoxsaylı yol hərəkəti qaydalarını pozduğuna görə avtomobil idarə etmək hüququndan məhrum edilmiş Rüstəm Orucov iyulun 3-də yenidən saxlanılıb.**

Belə ki, Rüstəm Orucov 10-OG-300 nömrəli, BMW markalı avtomobili idarə edərkən yol hərəkəti qaydalarını pozub. Bu zaman 8 saylı marşrut avtobusunun sürücüsü Sənan Səmədov ona irad bildirib. Azərbaycan Baş Prokurorluğu mətbuat xidmətinin rəhbəri Eldar Sultanov virtualaz.org-a bildirib ki, Rüstəm Orucov avtobus sürücüsünün iradına cavab olaraq onu döyüb.

Xatırladaq ki, R.Orucov 2014-cü ildə piyadanı vuraraq hadisə yerindən qaçdığına görə 4 il azadlıqdan məhrum edilib. Cəza müddətinin 1/3 hissəsini çəkdiyinə görə R.Orucov vaxtından əvvəl şərti azadlığa çıxıb. İyulun 4-də Binəqədi Rayon Polis İdarəsi R.Orucov barəsində Cinayət Məcəlləsinin 221.2.1 maddəsi üzrə cinayət işi açıb. Məhkəmənin qərarı ilə o həbs olunub.

Qeyd edək ki, N. Orucov dünən prezidentin sərəncamı ilə tutduğu vəzifədən azad olunub.

# Praqada öldürülən iş adamının nəşi bu gün Bakıya gətiriləcək

## Ötən 10 gündə Rəşad Qafarovun qətlinin üstünü açmaq mümkün olmayıb; müəmmalı qətlin istintaqı davam edir

**Biznesl ə məşğul olduğu Çexiyanın paytaxtı Praqada iyunun 30-da öz avtomobilində ölü tapılan azərbaycanlı iş adamı, “TERN Transport & Trading CZ” şirkətinin baş direktoru Rəşad Qafarovun nəşi bu gün Bakıya gətiriləcək.**

R.Qafarov Bakının Bilgəh qəsəbə qəbiristanlığında torpağa tapşırılacaq. Hazırda iş adamının qətli ilə bağlı istintaq davam edir. Saxlanılanlar olsa da, onların kimlikləri açıqlanmır. İstintaq saxlanılanların qətlə aidiyyətlərini araşdırır. Saxlanılanlar arasında azərbaycanlıların olub-olmaması haqda məlumat yoxdur. Bilinən odur ki, həmin şəxslər Çexiyanı tərk edə bilməzlər. Qətldən 10 gündən artıq vaxt keçsə də, motivi aydınlaşmayıb. Qanlı cinayətin R.Qafarovun işgüzar fəaliyyəti və ya şəxsi münasibətlər zəminində baş verməsi müəyyənləşməyib.

**R.Qafarovun müavini olmuş Mübariz Süleymanov “Yeni Müsavat”a açıqlamalarında bildirib ki, şirkət rəhbərinin hər hansı bir problemi olmayıb, onun qətlinin işgüzar fəaliyyəti ilə əlaqəsinin olmasına inanmırlar:** “Bilirəm ki, bu məsələnin işlə bağlılığı yoxdur. Çünki işdə hər hansı problem yox idi. İşlər yaxşı gedirdi, daşımalarla bağlı öhdəliklər problemsiz yerinə yetirilirdi. Rəşad Qafarov çox gözəl insan idi. Ona toxunmasaydılar, o kimsəyə toxunmazdı. Rəşad işçilərinə arxa-dayaq idi. Çexiyada 14-15 nəfər, Azərbaycanda 33 nəfər işçi vardı. Hər kəslə doğma münasibəti vardı. Kimsənin problemi olurdusa, dərhal ona heç bir təmənnasız köməklik olunurdu. Bizlər onun qazandırdığı çörəyi yeyirdik”.



**M.Süleymanov R.Qafarovun rəhbərlik etdiyi şirkətlərin Azərbaycanda məhkəmələrə cəlb olunması ilə bağlı sualı belə cavablandırmışdı. Sitat:** “Vaxtilə şirkətlərdə onun şəriki vardı. Şəriki dostu-tanışı idi. Sonradan şirkətdən hərə öz payını götürüb ayrıldı. İş məhkəməyə gedib çıxmadı. Hərə öz payını götürüb işinə davam etdi. Onun Amerikada olan ərəfədə başqa adamlarla söz-söhbəti olmuşdu. Amma həmin söz-söhbət də elə qlobal səviyyədə deyildi. Nə bilək vallah, nə baş verib”.

Qeyd edək ki, R.Qafarov “TERN Transport & Trading CZ” və “TERN Transport & Trading AZ” şirkətlərinə rəhbərlik edib. Birinci şirkət əsasən Avropa ərazisində beynəlxalq yükdaşımaları, ikincisi isə Azərbaycanın yerli və beynəlxalq yükdaşımalarını həyata keçirməkdədir. R.Qafarov ötən 10 ildə Çexiyada yaşayıb. 2 övladı, həyat yoldaşı da orada yaşayıb. Övladları orada təhsil alır. Şirkətləri beynəlxalq yük daşımaları ilə məşğul idi. İngiltərədən Çexiyaya, Çexiyadan İtaliyaya, Azərbaycana və digər ölkələrə yüklər daşınıb.

İyunun 30-da R.Qafarovu görüşə çağırıblar. Görüşə çağırılanda telefon söhbətinin şahidi olan həyat yoldaşı hər hansı bir qeyri-adilik hiss etməyib. R.Qafarov görüşə gedəndən az sonra onu Praqa şəhəri, Argentinskaya küçəsində öz maşınında cansız vəziyyətdə aşkarlayıblar. Məhkəmə tibb ekspertləri onun bədənində 5 bıçaq xəsarətinin izini aşkarlayıb. Hazırda istintaq bu məsələni araşdırır ki, ona həmin xəsarətləri maşında yanında əyləşən şəxs yetirib, yoxsa hadisə maşından kənarda olub. İlkin qənaətlərə görə, hadisə maşından kənarda baş verib. R.Qafarov ona bıçaq xəsarətləri yetiriləndən sonra idarə etdiyi maşının sükanı arxasına keçə bilib. Lakin həddən ziyadə qan itirdiyindən halsızlaşıb deyə maşını idarə edə bilməyib. Buna görə də evə və ya xəstəxanaya özünü çatdıra bilməyib və dünyasını sükan arxasında dəyişib.

R.Qafarovun 40 yaşı vardı. İşə Azərbaycanın prokurorluq orqanlarında başlamışdı. Çexiyada və Azərbaycanda öz sahəsində kifayət qədər tanınmış biznesmen olub. O, hazırda fəaliyyətini dayandırmış Azərbaycan Beynəlxalq Universitetinin məzunudur, bundan əvvəl “Panalpina” beynəlxalq loqistika şirkətinin regional nümayəndəliyində işləyib. Sonuncu vəzifəsi “TERN Transport & Trading CZ” şirkətinin baş direktoru vəzifəsi idi. Çexiyanın şirkətlər reyestrində yer alan məlumata görə, bu şirkətin səhmdarları Rəşad Qafarov və Dilara Qafarovadır. “TERN Transport & Trading” şirkətinin saytında göstərilənlərə əsasən bu şirkət 2008-ci ildə yaradılıb, hava, dəniz, dəmiryolları və avtomobil daşımaları ilə loqistik xidmətlərin tam kompleksini təklif edir. Şirkətin ilkin yükdaşıma marşrutu Azərbaycandan olsa da, o, tezliklə fəaliyyətini genişləndirib, Çexiya, Böyük Britaniya, ABŞ, Birləşmiş Ərəb Əmirlikləri, Rusiya və Türkiyədə filiallar şəbəkələri, anbarlar yaradıb. Şirkət hazırda Avropanın avtomobil nəqliyyatı ilə yükdaşımalar sahəsində liderlərindən biridir. Saytda göstərilir ki, şirkət dünyanın istənilən bir nöqtəsindən istənilən başqa nöqtəsinə yükləri çatdırmağa hazırdır. Yükdaşımalardan əlavə, şirkət yüklərin qısa və uzunmüddətli saxlanılmasını, yüklərin idarə edilməsini, gömrük xidmətlərini, sığorta və digər məsələləri də həll edir.

❑ **E.MƏMMƏDƏLİYEV**



## Nazir müavinləri gedir, ciddi ixtisarlar başlayır

### "Hökumət mətbəxinə" yaxın olan YAP funksioneri ciddi struktur islahatlarının anonsunu verdi; "Yeni Müsavat" bu haqda nə yazmışdı?

**Bakıda keçirilən İslamiada və Formula-1 yarışlarından sonra hökumətdə neçə vaxtdır gözlənilən struktrut islahatlarının başlayacağı ilə bağlı "Yeni Müsavat"ın yazdığı xəbərlər təsdiqlənir. Həmin xəbərlərdə bildirilirdi ki, iqtidar böyük bir məmur ordusu ilə yollarını ayırmağa hazırlaşır. Qeyd olunurdu ki, dəyişiklik Nazirlər Kabinetinin, Prezident Administrasiyasının iştirakı ilə hazırlanan geniş sənəddə "yuxarıdan aşağıya" bütün idarəetməni tənzimləmək, daha operativ bir komanda formalaşdırmaq məqsədi güdür.**

Xəbərlərdə vurğulanırdı ki, birləşdiriləcək nazirlik və dövlət komitələrinin (yalnız güc strukturları və Baş Prokurorluq istisna olmaqla) siyahısı artıq hazırlanıb. "Ləğv ediləcək və başqa qurumlar birləşdiriləcək təsisatların son siyahısı prezidentin qərarına bağlıdır, dəqiqləşdirmələr və yenidən işlənməsi də mümkündür" deyə, xəbəri verən mənbə bildirmişdi. Ən mühüm məqam isə nazirlik və fəaliyyəti davam etdiriləcək komitələrdə müavin ştatları ilə bağlı idi. Məlumata görə, nazirliklər və komitələrdə müavin ştatları əhəmiyyətli dərəcədə azaldılacaq ki, bu da hökumətin həm bürokratik aparata nəzarət imkanlarını yaxşılaşdıracaq, həm də dövlət idarəetmə aparatında çeviklik yaradacaq.

**YAP-ın icra katibinin müavini Siyavuş Novruzov APA-ya müsahibəsində bu məlumatların doğruluğunu təsdiqləyib. O deyib ki, idarəetmədə ciddi struktur islahatı gözlənilir:** "Hazırda bununla bağlı cənab prezidentə təqdim etmək üçün proqramlar hazırlanır. Çünki idarəçiliyin operativliyini təmin etmək, vətəndaşların problemlərinin həll olunması və s. baxımdan bu labüddür".

**S.Novruzov deyib ki, hökumət az sayda idarəetmə aparatı ilə fəaliyyət göstərməlidir:** "Bütün bunlarla bağlı son qərarı vermək səlahiyyəti, təbii ki, cənab prezidentə məxsusdur. Hansı sahədə struktur məqbul hesab olunacaqsa, qalacaq, hansı sahədə hesab olunmayacaqsa, ləğv olunacaq. Görürsünüz ki, ləğvetmə və birləşdirmə sayəsində yeni strukturlar yaranır. Biz demirik ki, o struktur pis işləyir deyə ləğv olunur, sadəcə, bu dövrün tələbidir ki, bunu başqa bir qurum əvəz etsin. Bir sıra sahədə islahata ehtiyac var və bu olacaq. Məsələn, bir nazirliyin yerli strukturu birləşib, o birininki yox. Axı bu cür ola bilməz. Hamısı eyni formada, eyni sistemlə olmalıdır. İdarəetmə bərabər sistemdə olmalıdır və islahatlar bu yöndə aparılacaq".

**YAP funksioneri nazirlər müavinləri ilə bağlı da danışıb.** "Bir nazirin iki müavini var, o birinin beş-altı müavini var. Bu da tənzimlənməlidir", - deyə S.Novruzov bildirib.

10 milyonluq Azərbaycanda 19 nazirlik və 9 dövlət komitəsinin olması son aylar ən çox müzakirə olunan mövzulardandır. Artıq heç kimə sirr deyil ki, idarəetmə aparatının həddən artıq şişirdilməsi dövlət büdcəsinə ikiqat yükdür və hökumət bundan yaxa qurtarmağa çalışır.

Gözlənilir ki, tezliklə Nazirlər Kabinetinə ciddi "əl gəzdiriləcək", bir neçə komitə ya birdəfəlik ləğv olunacaq, ya da müvafiq nazirliklərə birləşdiriləcək. Nazirliklərin də birləşdirilməsi gözlənilir ki, bununla da bağlı müvafiq təkliflər hazırlanıb. Bakı Şəhər İcra Hakimiyyətində də rəhbər postlarda ciddi ixtisarlar olacağı, bir neçə idarənin ləğv olunacağı gözlənilir. "Hökumət mətbəxinə" çox yaxın olan deputatın açıqlaması da bu dəyişikliklərin tezlikə baş tutacağının anonsudur.

❑ "YM"

# AMİP-in sədr əvəzi müxalifətin Alxanlıya getməməsinə izahat verdi

## Arzuxan Əlizadə: "Siyasi partiya mənsublarının belə səfərləri cəmiyyətdə bəzən reklam təəssüratı yarada bilir"



**AMİP-in sədr əvəzi Arzuxan Əlizadə "Yeni Müsavat"ın bir neçə məsələ ilə bağlı suallarını cavablandırıb.**

**- Arzuxan bəy, ermənilərin iyulun 4-də qətlə yetirdi iki yaşlı Zəhranın məzarını və qətlə yetirildiyi yeri bir sıra deputatlar, müdafiə naziri, ictimai xadimlər, diplomatlar ziyarət etdilər və etməkdədirlər. Müxalifət düşərgəsindən hələ ki orada heç kimin görünməməsinin səbəbi nədir?**

- Dinc və mülki əhalinin ermənilər tərəfindən qətlə yetirilməsi ilk hadisə deyil. Müharibə başladığı vaxtdan indiyədək ermənilər dinc əhaliyə, xüsusilə də qadınlara və uşaqlara qarşı misli görünməmiş vəhşiliklər ediblər. Törədilmiş cinayətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması bizim vacib vəzifələrimizdəndir. Bu mənada hadisə törədilən yerə ilk növbədə diplomatik missiya nümayəndələrinin səfərlərini təşkil etmək lazımdır. Müdafiə nazirinin, deputatların, dövlət rəsmilərinin işçi qaydasında hadisə baş verən əraziyə getməsi, yerli əhaliyə və zərər çəkmiş şəxslərə mənəvi və maddi dəstək göstərmələri də vacib məsələlərdir. O ki qaldı müxalif siyasi partiya mənsublarının belə səfərlərinə, təəssüf ki, bu, cəmiyyətdə bəzən reklam təəssüratı da yarada bilir. Görünür, müxalifət nümayəndələrini belə səfərlərdən çəkindirən səbəblər içərisində bu amil olmamış deyil.

**- Türkiyədə ana müxalifət partiyasının təşəbbüsü ilə 25 gün davam edən 425 kilometrlik yürüş keçirildi. Azərbaycanda müxalifət bu cür yürüş keçirə bilərmi? Keçirmək istəsəniz başlanğıc və son dayanacaq kimi hansı ünvanları seçərdiniz?**

- Bu gün Azərbaycanın müxalif siyasi partiyaları ilə Türkiyənin müxalifət partiyalarının mövcud durumunu bir çox parametrlərə görə heç cür müqayisə etmək olmaz. Bunun da bir sıra səbəbləri vardır. Həmin səbəblər, eləcə də bu səbəbləri doğuran səbəblər üzərində dayanmadan yalnız onu deyə bilərəm ki, hazırkı şəraitdə Azərbaycan müxalifəti Türkiyədə baş tutan yürüşlə müqayisədə analoji yürüş keçirə bilməz. Amma belə bir yürüş baş tutarsa, onun Bakıdan başlamaqla son dayanacağının Xankəndi olmasını istəyərdik.

### "AMİP-də əvvəlcədən yazılmamış bir qayda var"

**- Qarabağ məsələsinin sülh yolu ilə həlli variantı tükənmiş sayıla bilərmi? Azərbaycan Qarabağda hərbi əməliyyatlara başlamalıdırmı?**

- İstənilən hərbi əməliyyat itkilər, məhrumiyyətlər deməkdir. Bütün münaqişə və müharibələrin sonu da danışıqlarla, sülh sazişləri ilə bitir. Bu prizmadan yanaşsaq, əlbəttə ki, problemin danışıqlar yolu ilə çözülməsi daha məqsədəuyğundur. Necə ki, Azərbaycan uzun illərdir ki, problemin sülh yolu ilə həll olunmasında maraqlı olduğunu nümayiş etdirib. Məsələnin nizamlanması üçün artıq 25 ildir ki, ATƏT-in Minsk Qrupu fəaliyyət göstərir. Bu illər ərzində BMT-nin, Avropa Şurası, ATƏT PA-nın bir sıra ATƏT PA-nın bir sıra qətnamələri qəbul olunub, həmsədrlərin bölgəyə saysız-hesabsız səfərləri, tərəflər arasında ikitərəfli və çoxtərəfli görüşlər baş tutub. Amma bütün səylərə baxmayaraq, ortada nəticə yoxdur. Nəticənin olmaması isə birmənalı olaraq ermənilərin maraqlarına uyğundur. Sirr deyil ki, Ermənistan şimal qonşumuzun hərbi dəstəyi ilə Dağlıq Qarabağı və Dağlıq Qarabağdan daha böyük ərazi olan ətraf 7 rayonumuzu işğal edib və bu torpaqların yerli azərbaycanlı əhalisini öz dədə-baba yurdlarından didərgin salıb. Zaman keçdikcə özünü qarabağlı sayan, lakin Şuşanı, Laçını, Kəlbəcəri, Xankəndini görməyən yeni nəsil formalaşır. Bununla da bir çox məsələlər yaddan çıxır və bu səbəbdən də erməni tərəfi təbii ki, problemin konservləşdirilməsində, mövcud status-kvonun saxlanılmasında maraqlıdır. Mən Dağlıq Qarabağın da əzəli torpaqlarımız olan Dərbəndin, Borçalının, Göyçənin, Zəngəzurun, İrəvanın və adını çəkmədiyim digər ərazilərimizin taleyini yaşamasını istəmirəm. Nəhayət, bir millət olaraq itirdiklərimizin fərqində olmalı və olanlardan ciddi nəticə çıxarmalıyıq. Bu prizmadan yanaşaraq hesab edirəm ki, Azərbaycan sözdə deyil, əməldə hərbi əməliyyatlara başlamaq əzmini nümayiş etdirməlidir. Ötən ilin aprel savaşları göstərdi ki, biz bunu bacarırıq. Azərbaycan ordusu hazırda regionun ən güclü ordusudur, əsgərlərimizin və əli silah tutan hər bir azərbaycanlının torpaqlarımızı işğaldan azad etmək ruhunu və əzmini də bura əlavə etsək, qarşımızda heç bir gücün dayana bilməyəcəyinə də əminəm. Bütün bunlarla yanaşı, şübhəsiz ki, regionda maraqları olan beynəlxalq güclər, xüsusilə də Rusiya amili nəzərə alınmalı, torpaqlarımızı işğaldan azad edə bilməyimizə mane olacaq faktorları neytrallaşdırmaq üçün qabaqlayıcı tədbirlər görülməlidir.

**- AMİP-in qurultayı nə zaman keçiriləcək, gecikmə və sədrliyə iddialılar varmı?**

- AMİP-in 11-ci qurultayının keçirilməsi gündəmdədir. Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsi fəaliyyət göstərir. Təşkilat Komitəsinin müəyyən etdiyi qrafikə uyğun olaraq artıq bütün yerli rayon və şəhər təşkilatlarımızda hesabat-seçki konfransları keçirilib, qurultaya nümayəndələr seçilib. Sadəcə, bəzi texniki xarakterli məsələlər həll edilməli və bir də ən əsası qurultayın keçiriləcəyi məkanla bağlı məsələyə aydınlıq gətirilməlidir. AMİP oturuşmuş ənənələrə malik siyasi təşkilatdır, qurultaylarımız heç vaxt sıradan bir tədbir kimi keçirilməyib və həmişə ölkədə müəyyən rezonansa səbəb olub. Növbəti qurultayımızın da lazımi səviyyədə keçirilməsinə çalışırıq, lakin onu da qeyd etməliyəm ki, işimizdə bir qədər gecikmə var. Gecikmənin səbəblərindən biri də maliyyə çatışmazlığı ilə əlaqədardır. Əlbəttə ki, ölkənin ilk rəsmi dövlət qeydiyyatından keçmiş və 25 illik tarixi olan partiyasının normalda belə problemləri olmamalıdır. Lakin bu da günümüzün reallığıdır və bu gün ölkədə fəaliyyət göstərən digər siyasi təşkilatlar da təəssüflər olsun ki, analoji problem yaşayırlar. Belə problemlərin olmaması və ölkədə siyasi partiyalaşma institutunun tamamilə sıradan çıxmaması üçün bir sıra addımlar atılmalı və ilk növbədə "Siyasi Partiyalar haqqında" Qanunda müvafiq dəyişikliklər edilməlidir.

Qurultayda partiya sədrliyinə irəli sürüləcək namizədlərə gəldikdə isə onu deyə bilərəm ki, partiya daxilində AMİP sədrliyinə iddialı və layiqli kifayət qədər namizəd var. Amma AMİP-də əvvəlcədən yazılmamış bir qayda var. Bu qaydaya əsasən sədrliyə namizədlər yalnız qurultayın günü olan elan edildən sonra iddialarını ortaya qoyur və bir növ seçki kampaniyasına başlayırlar. Bu da ona görədir ki, namizədlər bərabər şərtlər və imkanlar daxilində mübarizə aparsınlar. Çünki adi halda partiya rəhbərliyində olan şəxslərlə sədrliyə namizədliyini irəli sürmək istəyən sıravi üzvün mətbuat orqanlarına çıxmaq, eləcə də partiya daxilində müxtəlif rayon təşkilatları içərisində təbliğat aparmaq imkanları eyni deyil.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 145 (6759) 12 iyul 2017

# Bakıda zibil çənində güclü partlayış: xəbərdarlıq, yoxsa...

## Rəsmi orqanlar araşdırma aparır; **ekspert:** “Bakının mərkəzi rayonunda partlayıcı qurğu işə düşürsə...”

**Bakının Nəsimi rayonunda zibil çənində güclü partlayış olub. Zibil çənində olan partlayıcı qurğu partlayıb, yaralanan var. Bu barədə sputnik.az hüquq-mühafizə orqanlarına istinadən məlumat yayıb. Məlumata görə, hadisə iyulun 10-da saat 20:40-da baş verib.**


Sülhəddin Əkbər

Paytaxtın “20 Yanvar” küçəsində mənzil-istismar sahəsinin əməkdaşları - Kürdəmir sakini 1987-ci il təvəllüdlü Rauf Rəsulov və Siyəzən sakini 1983-cü il təvəllüdlü İmamverdi Əhmədov “Man” markalı avtomaşınla zibil çənlərini təmizləyərkən partlayış baş verib. Sonradan bəlli olub ki, partlayış zibil çənlərindən birinin boşaldılması zamanı olub. R.Rəsulov çoxsaylı qəlpə zədələri alıb və Respublika Travmatologiya İnstitutuna yerləşdirilib. Sayt yazır ki, faktla bağlı araşdırma aparılır.



**Milli təhlükəsizlik nazirinin sabiq müavini Sülhəddin Əkbər “Yeni Müsavat”a deyib ki, baş vermiş olay diqqətlə araşdırılmalıdır:** “Söhbət bomba partlayışından gedirsə, istintaq baş vermiş olayın xəbərdarlıq xarakterli olmasını və ya məqsədyönlü bir partlayış törədilməsini aydınlaşdırmalıdır. İstintaq aparılmalı, partlayıcının zibil çəninə atılmasının məqsədi aydınlaşdırılmalıdır. Məsələn, mümkündür ki, terror məqsədi olan və ya sui-qəsdə hazırlaşan şəxs son anda fikrindən daşınıb, qorxub, çəkinib və əlindəki partlayıcını zibil çəninə atıb. Ola bilər ki, partlayıcını bilərəkdən hədəfdə olan şəxsin yolunun üstündəki zibil çəninə atıblar və məqsəd də həmin şəxsə hədələrin real olduğunu göstərməkdir. İstintaq bu məsələləri aydınlaşdırmalıdır”.

**S.Əkbər bildirib ki, baş vermiş olay həm də xoşagəlməz bir siqnal kimi qəbul olunmalıdır:** “İstənilən halda, Bakının mərkəzi rayonunda zibil çənində partlayıcı qurğu işə düşürsə, bu xoşagəlməz haldır. Ümumiyyətlə isə dünyadakı, regiondakı vəziyyəti nəzərə alaraq uzun müddətdir ki, Azərbaycanda terror-təhdid səviyyəsinin yüksəldilməsini təklif etmişəm. Terror-təhdid səviyyəsinin yüksəldilməsi də hər səviyyəyə uyğun təkliflər paketini həyata keçirmək deməkdir. Əgər Azərbaycanda belə bir addım atılacaqsa, təbii ki, terror-təhdid səviyyəsi yüksək olan ölkələrdə, Türkiyədə olduğu kimi, zibil çənləri küçələrdən yığışdırılacaq”.

**S.Əkbər deyir ki, terrorçuların zibil çənlərini hədəf seçmələri təsadüfi deyil:** “Bunu özlərinin təhlükəsizlikləri baxımından edirlər. Çünki küçənin bir küncünə, ortasına hər hansı bir bağlama qoyulsa, diqqət çəkir. Bağlamanı qoyan şəxsə küçəni zibilləməsi kimi irad bildirənlər ola bilər. Ondan bağlamanı küçədən götürməsini tələb edənlərin olması ehtimalı böyükdür. Həmin bağlamanı qoyan şəxsi görənlər olur. Zibil çəninə zibil atanlara isə kimsə diqqət etmir. Zibil çəninə zibili hər kəs atır. Kənardan baxan, diqqət edən olsa belə müxtəlif qablarda zibil atan şəxsə irad tuta, "bağlamanı niyə zibil çəninə atmısan" deyə bilməz. Zibil çəninə atılan hər bağlamanı yoxlayan da yoxdur. Zibil çənlərinin partladılması daha çox xəbərdarlıq xarakteri daşıyır. Türkiyədə zibil yeşiklərinin partladılmasında kənardan idarə olunan bombalardan istifadə olunub".

**S.Əkbər Azərbaycanda terror-təhdid səviyyəsinin qaldırılmasını təklif etməsinin səbəbini də izah edib:** “Dünyada, xüsusən də qonşuluğumuzdakı dövlətlərdə - Əfqanıstan, İraq, Suriya, Türkiyə, İran, Şimalı Qafqaz və Gürcüstanda təhlükəsizlik baxımından durum qeyri-sabitdir. Azərbaycan illərdir ki, müharibə vəziyyətindədir. Azərbaycan regionun əsas tranzit ölkəsidir və ən başlıcası isə Azərbaycan vətəndaşları terror təşkilatlarında vuruşurlar. Bu, Azərbaycanda terror təşkilatlarının şəbəkəsinin varlığına dəlalət edir. Ölkə daxilində belə təşkilatların sıralarında olmuş şəxslərə qarşı çox sərt addımlar atılır, terrorçular məhv edilir, ələ keçənlər məhkəmələr tərəfindən uzun müddətə azadlıqdan məhrum olunurlar. Bütün bunlar Azərbaycanda terror-təhdid səviyyəsinin yüksəldiyini göstərir”.

**S.Əkbər deyir ki, terrordan heç bir ölkə sığortalanmayıb:** “Ən güclü xüsusi xidmət orqanlarına malik ölkələr belə terrordan sığortalanmayıblar. Burada ən başlıca faktor kəşfiyyat orqanlarının nə dərəcədə effektiv işləməyidir. Əgər öncədən kəşfiyyat məlumatı yoxdursa, təhlükəsizlik sistemi nə qədər effektiv olursa-olsun terrorun qarşısını əksərən almaq mümkün olmur. İlk növbədə effektiv kəşfiyyat sistemi olmalıdır. Dövlətin terrorla mübarizə təcrübəsi olmalıdır, bu sahədə təcrübəli kadrların çalışmasına şərait yaradılmalıdır. Terrorla mübarizə ayrıca kəşfiyyat və təhlükəsizlik orqanlarının işi deyil, bu işə kompleks şəkildə yanaşmaq lazımdır”.

**S.Əkbər vurğulayıb ki, terror olayları haqda məlumatlar geniş ictimaiyyətdən gizli saxlanılmamalıdır:** “Belə olay baş verirsə, qətiyyən ictimaiyyətdən gizli saxlamaq olmaz. Mütləq şəkildə cəmiyyətə anında hərtərəfli məlumat verilməlidir. Vətəndaşlara təhlükəsizliklə bağlı hansı addımlar atılmalı olduqları barədə məlumat verilməlidir”.

**“Yeni Müsavat”ın əməkdaşı baş vermiş olayla bağlı Daxili İşlrə Nazirliyinin mətbuat xidməti ilə əlaqə saxlayıb. Qurumun KİV və ictimaiyyətlə əlaqələrə məsul əməkdaşı İlham Babayev bildirib ki, partlayışla bağlı hadisə yerində Fövqəladə Hallar Nazirliyinin və Daxili İşlər Nazirliyinin ekspertləri araşdırma aparıblar:** “İlkin ehtimal budur ki, partlayışın meydana gəlməsinin səbəbi məişətdə işlənən kiçik tutumlu qaz balonudur. Hazırda araşdırmalar davam etdirilir”.

**FHN-in mətbuat xidmətinin rəhbəri Oktay Bayramov isə sorğumuza cavab olaraq bildirib ki, Nəsimi rayonu ərazində zibil çənində partlayış baş verməsi haqda məlumat Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə daxil olub. Bundan sonra hadisə yerinə Xüsusi Riskli Xilasetmə Xidmətinin əməkdaşları, ekspertləri göndərilib:** “Əməkdaşlarımız orada heç nə aşkar etməyiblər. Hazırda partlayışla bağlı Nəsimi Rayon Polis İdarəsində araşdırma aparılır”.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Eldar Mahmudov ətrafında həlqə daralır, yoxsa...

## Sabiq təhlükəsizlik zabitindən maraqlı versiya: “Görünür, keçmiş naziri müdafiə edən qüvvələri sıxmaq üçün müəyyən gedişlər edilir”


Eldar Mahmudov

**Bakı Hərbi Məhkəməsində sahibkarlara hədə-qorxu gəlməkdə, külli miqdarda əmlakını ələ keçirməkdə təqsirləndirilən MTN polkovniki Vüsal Ələkbərovun cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb. Hakim Siyavuş Hacıyevin çıxardığı hökmlə Vüsal Ələkbərov 12 il müddətinə azadlıqdan məhrum edilib və polkovnik rütbəsindən məhrum edilib. V.Ələkbərova məxsus olan və həyat yoldaşı Şəhla Ələkbərovanın adına rəsmiləşdirilən Badamdar qəsəbəsindəki 18 sot torpaq sahəsi və üzərində yerləşən fərdi yaşayış evi, Şərifzadə küçəsindəki mənzili, ümumi dəyəri 1 milyon 277 min manat olan əmlakları müsadirə edilib. Məhkəmə sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov və ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin Baş İstintaq İdarəsinin keçmiş rəisi Mövlam Şıxəliyev barəsində cinayət işinin başlanması üçün prokurorluğa təqdimat göndərilib. Hökmdə göstərilib ki, təqdimat zərərçəkmişlərin şikayəti əsasında hazırlanıb.**

2015-ci ilin oktyabrında Milli Təhlükəsizlik Nazirliyində əksəriyyət üçün gözlənilməz əməliyyat keçirildi və Eldar Mahmudov nazir vəzifəsindən qovuldu. Bundan sonra Amma gözlənilməz əməliyyat gözlənilən nəticəni də ortaya qoymadı - Eldar Mahmudovun komandasının bəzi üzvləri tutulsa da, özü də daxil olmaqla, əsas fiqurlar istintaqdan kənarda qaldı.

**Sabiq təhlükəsizlik zabiti İlham İsmayıl** məhkəmənin çıxardığı xüsusi qərardadı gecikmiş adlandırıb. Bildirib ki, xüsusi qərardadın cinayət işinə çevrilmə perspektivi yoxdur: “Ortalıqda bu qədər fakt olduğu bir zamanda xüsusi qərardad əvəzinə birbaşa cinayət işi başlanmalı, hər iki şəxs həbs edilməli idi. Hökmdə yazırlar ki, xüsusi qərardadı zərərçəkənlərin şikayəti əsasında çıxarıblar. Yəni məhkəmə faktlara, konkret cinayət əməllərinə istinad etməkdən yayınaraq zərərçəkənlərin şikayətinə əsaslandığını qeyd edir. Xüsusi qərardad üzrə hansısa hərəkətlilik olmayacaq, bir müddət sonra isə üzərinə bir dərkənar qoyub kənara tullayacaqlar. Bizə məlum olan və bilmədiyimiz səbəblərdən Eldar Mahmudov bu gün cinayət məsuliyyətinə cəlb edilməyib. Heç xüsusi qərardad çıxarılandan sonra da o, cinayət məsuliyyətinə cəlb edilməyəcək. Bu, sadəcə olaraq, Eldar Mahmudovun sıxılmasına hesablanan bir addımdır. Get-gedə onu sıxırlar. Görünür, ondan nəsə gözləyirlər, umurlar. Ondan alınacaq məsələlər var. Son dövrlər belə hallar çoxalıb, hər şey maddiyyət üstündə qurulub. Bugünlərdə xəbər çıxdı ki, Rabitə Nazirliyinin Aparat rəhbəri Vidadi Zeynalova dövlətə vurulan ziyanı ödəməyə şərait yaradıblar. Buna qədər onu sıxırdılar, o da vurnuxurdu, ziyanı ödəyib azadlığa çıxmaq üçün yollar axtarırdı. Görünür, kimlərləsə razılığa gələ bilib və ona iş üzrə rəsmi hesablanan 7 milyon manatlıq ziyanı ödəməyə imkan veriblər. Belə çıxır ki, Eldar Mahmudov da nəyisə qaytarmalıdır və buna görə onu sıxırlar. Məsələnin başqa tərəfləri də ola bilər. Azərbaycanda ictimai rəylə hesablaşan yoxdur, amma ictimai rəyi bir az sakitləşdirmək üçün belə bir xüsusi qərardad çıxara bilərdilər. Danışanda da deyəcəklər ki, görürsünüz, biz xüsusi qərardad qəbul etmişik”.

**İ.İsmayıl bildirib ki, son vaxtlar hakimiyyətdaxili qruplaşmaların mübarizəsi mətbuata da çıxır:** “Yayılan məlumatlardan belə anlaşılır ki, tərəflər arasında mübarizə adamların "vurulması" ilə davam etdirilir. Görünür ki, Eldar Mahmudovu müdafiə edən qüvvələr var və onları sıxmaq üçün müəyyən addımlar atılır. Xüsusi qərardadın çıxarılması da belə addımlardan ola bilər. Ümumilikdə isə Eldar Mahmudovun həbsi gözlənilmir. Çünki Eldar Mahmudovu müdafiə edən tərəf çox güclüdür".

Yada salaq ki, E.Mahmudov 2004-cü ildə milli təhlükəsizlik naziri postuna təyin olunmuşdu. Bundan dərhal sonra o, Mövlam Şıxəliyevi nazirliyin İstintaq Baş İdarəsində xidmətə qəbul edib. 2007-ci ilə qədər həmin idarənin 1-ci şöbəsinin rəisi, 2007-2008-ci illərdə Baş İdarənin rəis müavini, 2008-ci ildən 2015-ci ilədək rəisi vəzifəsində işləyib.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 145 (6759) 12 iyul 2017

# Prioritet sahə olan pambıqçılıqda müasir texnikanın tətbiqi niyə gecikir?

## Səbəbləri sıralayan iqtisadçı ekspert təklif verir...


Natiq Cəfərli

**Ötən gün iqtisadçı ekspert Natiq Cəfərlinin mətbuatda dərc olunan köşə yazısı ictimai müzakirəyə səbəb olub. İqtisadçının qeyd etdiyi bəzi fikirlər daha çox diqqət çəkib.**

Artıq əl əməyinin sıradan çıxdığını deyən ekspert qeyd edib ki, cəmi 100 il bundan öncə ABŞ-da 1 hektarda pambığı əkib-becərib yığmaq üçün 23 nəfərə ehtiyac duyulurdu. "Bu gün ABŞ-da 12 hektar ərazidə pambığın ərsəyə gətirilməsində cəmi 1 nəfər işçi tələb olunur. Bizim hökumət isə hələ də əllə pambıq əkib-yığıb uğur və pul qazanmağı düşünür".

İqtisadçı xarici ölkələrdə bütün əkin və yığım prosesinin müasir texnika və robotlar vasitəsilə görüldüyünü qeyd edib. Bəs görəsən, həmin texnika Azərbaycana niyə gətirilmir? Ölkəmizdə niyə əl əməyinə daha çox üstünlük verilir? Bunun müsbət və mənfi cəhətləri nələrdir?

Bu sualları cavablandıran **iqtisadçı ekspert Natiq Cəfərli** vurğuladı ki, əgər bu sahə sırf biznes təfəkkürü ilə inkişaf edəcəksə, orada biznesə dövlətin dəstəyi birbaşa yox, dolayısı ilə olur: "Uzunmüddətli və aşağı faizli kreditlər verməklə, həmin torpağı məhsuldarlıqla bağlı sığortalamaqla, bu kimi addımlar atmaq dövlət biznesə dəstək ola bilər. Bizdə isə dövlət birbaşa iştirakçı olmağa, dövlət şirkətləri vasitəsilə birbaşa bazarda oyunçu olmağa çalışır. Buna görə də təəssüf ki, effekt vermir. Əslində dünya praktikasında sübut olunur ki, əl əməyi ilə yığılan pambıq 15-20 faiz itkiyə məruz qalır. Amma dünyada çoxlu müasir texnikalar var. Bunun hətta Çin istehsalından tutmuş, Britaniya istehsalına qədər müxtəlif növləri və qiymətləri var. Təbii ki, bu texnikalar bahadır, çox ucuz deyil. Pambıq əkmək üçün və yığmaq üçün olan müxtəlif çeşidli Çin istehsalı kombaynların təqribən 250 min dollar qiyməti var. Ancaq həmin vəsait onlarla insanın əməyini əvəz edir. Bizdə isə bu sahəyə həm də yeni iş yerləri yaradacaq sahə kimi baxırlar. XXI əsrdə bu, doğru yanaşma deyil. Həm də iqtisadi cəhətdən səmərəli sayılmır. Bu zaman pambıq da itkiyə məruz qalır. Bu işdə biznes təfəkkürünə ehtiyac var. Təbii ki, dövlətin dəstəyi olmalıdır. Ancaq dövlət bu prosesdə birbaşa iştirakçı olmaqdansa, hansı rayonlarda torpağın əkilməsini əmrlə həyata keçirməkdənsə, ciddi təşviq proqramları ilə, insanların marağını cəlb etməklə, onlara aşağı faizli, uzunmüddətli kredit verməklə, sığorta güzəştləri etməklə, əldə olunan məhsulun dünya bazarına çıxması üçün lojistik dəstək göstərməklə sahibkarlara, fermerlərə yardım etməlidir. Bu da həmin sahələrin inkişafına gətirib çıxaracaq".

**N.Cəfərlinin sözlərinə görə, nə qədər ki, Azərbaycanda dövlət biznes layihələrində birbaşa iştirakçı olmaq istəyəcək, təəssüf ki, onlar iqtisadi effekti və səmərəsi aşağı olan layihələrə çevriləcək:** "Necə ki, biz bunu indi də görürük. Əl əməyi ilə pambıq yığımı daha çox insanın işlə təmin olunmasına şərait yaratsa da, məhsuldarlığı aşağı salır və məhsulun maya dəyərini artırır. Bunu bir sosial layihə kimi düşünmək doğru deyil. Gələcəkdə bu sahələrin inkişafına ayrılan vəsaitin də itki ilə nəticələnməsinə səbəb olacaq. Təbii ki, iş yerlərinin yaranması dövlətin əsas prioritetlərindən biridir. Lakin dövlət əl əməyinə üstünlük verməkdənsə, texnika və texnologiyaların cəlb olunmasına, emal sənayesində iş yerlərinin yaranmasına çalışmalıdır".

**İqtisadçı iş yerlərini daha çox emal sənayesində yaratmağın effektli olacağını diqqətə çatdırdı:** "Pambığın xammal kimi satılmasındansa onun emal olunub, xarici bazarlara son məhsul kimi, ya parça şəklində, ya da hazır geyim şəklində satılmasına çalışılmalıdır və iş yerləri o sahələrdə yaradılmalıdır. Sırf pambığın əkilməsi, becərilməsi və yığılmasında əl əməyindən istifadə olunması nə effekt verəcək, nə də iqtisadi cəhətdən səmərəli olacaq".

❑ Nərgiz LİFTİYEVA



# Taxıl biçininin qızğın vaxtında kombayn çatışmazlığı yaranıb

## Deputat çıxış yolu təklif edir

**Taxıl yığımının qızğın çağında Azərbaycanın bəzi bölgələrində kombayn çatışmazlığı müşahidə olunur. Bu barədə "Yeni Müsavat"a bildirildiyinə görə, xüsusilə də ucqar dağ rayonlarında texnikanın kifayət qədər olmaması səbəbindən biçin vaxtı keçən taxıl məhv olur.**

Kəndlilərin dediyinə görə, havaların yağıntılı olması da onların işini daha da çətinləşdirib. Vaxtaşırı yağan yağış taxılın çürüməsinə gətirib çıxarır. Üstəlik, bu il ziyanlı gəmiricilərin həddən artıq çox olması, onlarla mübarizə işinin aparılmaması da taxılın məhvinə səbəb olub. Bəzi kənd zəhmətkeşləri hətta əlacsız qalıb taxıl sahəsini dəryazla biçiblər ki, bu halda da buğda yerə səpələnib və evə, sadəcə, saman aparası olublar. Belə hesab olunur ki, ölkə rəhbərliyinin qeyri-neft sektorunun inkişafına önəm verdiyi şəraitdə kombayn çatışmazlığının yaşanması qarşıya qoyulan hədəflərə çatmağa mane olur. Üstəlik, taxıl istehsalının azalması ölkənin daxili tələbatına zərbə vurmaqla yanaşı, qiymət artımına da səbəb olacaq. Mövcud vəziyyətlə bağlı Kənd Təsərrüfatı Nazirliyinin münasibətini öyrənmək istədik. Lakin mətbuat xidməti ilə əlaqə baş tutmadı.

Qeyd edək ki, bir müddət öncə Kənd Təsərrüfatı Nazirliyindən bildirilmişdi ki, son 12 ildə "Aqrolizinq" ASC-nin xətti ilə 28 mindən çox kənd təsərrüfatı texnikası, o cümlədən 1869 taxılyığan kombayn, 94 pambıqyığan kombayn, 8636 traktor və 17483 digər texnikalar alınaraq, istehsalçılara xidmət üçün rayonlardakı aqrotexniki servis mərkəzlərinə verilib və ya lizinq yolu ilə sahibkarlara satılıb. Əgər kifayət qədər texnika alınırsa, o halda taxıl niyə sahələrdə məhv olur?

**Deputat, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Əli Məsimli dedi ki, Kənd Təsərrüfatı Nazirliyinin rayon idarələri tərəfindən taxıl biçini barədə verilmiş operativ məlumata görə, bu ilin 6 iyul tarixinə 954 736 hektar taxıl sahəsinin 600 055 hektarı və ya 63 faizi artıq biçilib:** "Bunun da 326846 hektarı (52%) buğda, 273209 hektarı (83,%) isə arpa sahələridir. Göründüyü kimi, Azərbaycanda əkin sahələrinin çox böyük hissəsi taxıl əkini altındadır. Bu işi səmərəli təşkil etməklə, məhsuldarlığı, keyfiyyəti və səmərəliliyi artırmaq, itkiləri azaltmaqla nəinki taxıla olan tələbatımızı yerli istehsal hesabına ödəyə, hələ bir müddətdən sonra ixrac da edə bilərik. Bununla belə, bir sıra yerlərdə yetişmiş taxılın, xüsusən də buğdanın vaxtında biçilməsi ilə əlaqədar ciddi problemlər yaranıb. Əvvəlki



illərdə olduğu kimi bu il də taxıl yığımı zamanı yaranan problem və çətinliklərin müəyyən obyektiv, təbii-iqlim və subyektiv səbəbləri var. Birincisi, kənd təsərrüfatı demək olar ki, tamamilə özəl bölmədən ibarətdir. Burada kooperasiya münasibətləri lazımi səviyyədə inkişaf etmədiyindən, bu boşluğu hələ ki dövlət doldurmağa çalışır. Beynəlxalq təcrübədən məlumdur ki, dünyada ən pis menecerin adı dövlətdir. Optimal nisbətdə dövlət tənzimlənməsi çox vacibdir. Amma harada ki, dövlət iqtisadi proseslərə lazım olduğundan çox müdaxilə edir, orda səmərəlilik bir qayda olaraq aşağı olur. Məhz bu səbəbdən demək olar ki, hər il taxıl yığımı dövründə məlum olur ki, kombayn çatışmazlığından fermerlərin bir hissəsi becərdiyi taxılı vaxtında yığıb itkilərdən yan keçə bilmir. İkincisi, elə yerlər də var ki, min bir zəhmətlə yetişdirilən taxılı yığmaq müşkülə çevrilib. Kombayn çatışmazlığı ucbatından yetişdirilən taxılın bir hissəsi itir. Taxıl biçini mövsümü öncəsi kənd təsərrüfatı naziri müsahibələrinin birində qeyd etmişdi ki, son iki ildə ölkəyə gətirilmiş və lizinqə verilmiş kombaynların sayı yetərli olduğu üçün bu il yeni kombaynların gətirilməsi və alınması nəzərdə tutulmur. Amma hər il taxıl biçini zamanı kombayn çatışmazlığı fermerlərin ən ciddi problemi olur".

**İqtisadçı deputat bildirdi ki, bu məsələ obyektiv araşdırılmalı və optimal variantda həll edilməlidir:** "Bəlkə də Azərbaycanın kombayn parkındakı kombaynların sayı son illər ölkəyə gətirilən kombaynlar da əlavə olunmaqla, kəmiyyət baxımından bütün taxılı biçmək üçün yetərlidir. Amma köhnə kombaynların heç də hamısı vaxtında biçinə hazır vəziyyətə gətirilmədiyindən, artıq hər il taxılı vaxtında biçib itkilərə məruz qalmamaq problemə çevrilir. Biçinin qızğın çağında fermerin vaxt itirməsi xeyli miqdarda məhsul və ona mütənasib də gəlir itirməsi deməkdir. Belə vəziyyət fermerlərdə Azərbaycan üçün həm də strateji məhsul hesab olunan taxıl əkin-biçininə və istehsalın artırılmasına marağı azaldır. Fikrimizcə, sözügedən məsələyə bu kontekstə yanaşanda biçini vaxtında, itkisiz və yüksək keyfiyyətlə həyata keçirməkdən ötrü hələ əlavə 25-30 faiz və ya aşağı-yuxarı təqribən min ədədə yaxın yaxşı kombayna da ehtiyac var. Üçüncüsü, taxıl biçini zamanı özünü göstərən nöqsanlarla yanaşı, belə vəziyyət, kombayn çatışmazlığından və ya mövcud kombaynların gücündən optimal istifadə olunmamasından əlavə, həm də təbii amillərlə, havaların yağıntılı keçməsi ilə əlaqədardır. Belə ki, bildiyimiz kimi, iqlim şəraitindən asılı olaraq ölkəmizin regionlarında taxıl müxtəlif vaxtlarda biçilir. Məsələn, 15 gün fərqlə mərkəzi aran bölgəsində biçin iyun ayının ilk həftəsində başlandığı halda, Şəkidə iyun ayının 20-dən, daha başqa bir yerdə əsasən iyulun 1-dən, sonra Daşkəsən-Gədəbəydə isə iyulun sonunda və elə yerlər də olur ki, avqust ayında həyata keçirilir. Görünən odur ki, havaların yağmurlu olması aran regionunda biçinin həmişəki vaxtda tam başa çatdırılmasına mane olub və nəticədə həmin regiona aid kombaynlar işlərini vaxtında bitirən bilmədiklərindən, qonşu bölgələrə köməyə və əlavə qazanc üçün gəlməyə imkan tapmırlar".

**Deputat qeyd etdi ki, bu, həm də işin optimal təşkil edilməməsi ilə bağlıdır:** "Yeni ölkənin cənub regionundakı bir sıra yerlərdə taxıl yığımı üçün əlverişsiz hava şəraiti taxılı vaxtında yığmağa imkan verməsə də, həmin yerlərdə işini bitirib azad olan kombaynları taxılın bir qədər sonra yığılması zəruri olan rayonların təsərrüfatlarına mütəşəkkil şəkildə yönəltmək mümkün olmayıb. Bu da həmin təsərrüfatlarda taxıl yığımı sahəsində çox gərgin vəziyyət yaradıb. Fikrimizcə, öz işini bitirib boş qalan kombaynları başqa rayonda istifadəsi sahəsində təşviqləndirici tədbirlər görməklə taxıl yığımındakı gecikmələrdən yaranan itkiləri xeyli azaltmaq olar. Dördüncüsü, lizinq şirkətləri fermer təsərrüfatlarının tələbatına uyğun xidmətlər təklif etsələr, taxılı vaxtında və itkisiz yığmaqda problem olmaz. Taxılın yığılması müqabilində fermerlərdən tələb olunan pulun çoxluğu da taxılın vaxtında yığılması işinə mane olur. Problemin etibarlı şəkildə hllinə nail olmaqdan ötrü aqrar islahatları dərinləşdirilməli, kənd təsərrüfatında iri, orta və xırda təsərrüfatların və lizinq şirkətlərinin münasibətlərinin effektiv kombinasiyasına nail olmaq lazımdır. Mövcud texnikadan istifadənin optimallaşdırılması mexanizmi hazırlanıb tətbiq edilməlidir. Kənd təsərrüfatı texnikasına olan tələbat yenidən obyektiv qiymətləndirilməli və lazım olan sahələrə əlavə texnika gətirilməlidir".

**Ə.Məsimlinin sözlərinə görə, elə etmək lazımdır ki, kombaynların əksəriyyəti iri taxılçılıq təsərrüfatları ilə yanaşı, həm də kiçik və orta təsərrüfatların da taxılının vaxtında biçilməsini təmin etsin:** "Kənd təsərrüfatı texnikasının və xidmətlərin qiymətlərinin şişirdilməsinin qarşısı alınmalı ki, fermerlər dövlətin tətbiq etdiyi güzəştlərdən dolğun şəkildə faydalana bilsin və daha çox texnikanı lizinqə götürməyə və ya xidmətdən istifadəyə maliyyə imkanı çatsın".

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 145 (6759) 12 iyul 2017

**Son zamanlar baş verən hadisələrə, xüsusilə də Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində işğalçı ordunun törətdiyi qətliama ən müxtəlif səviyyələrdə reaksiya gəlsə də, Azərbaycanın sabiq prezidenti Ayaz Mütəllibovun mövqeyini görə bilmədik. Odur ki, "Yeni Müsavat" olaraq eks-prezidenti aradıq. Əməkdaşımızla telefon söhbətində hazırda bağda dincəldiyini deyən Ayaz Mütəllibovla müsahibəni sizə təqdim edirik.**

# Keçmiş prezidentdən "Yeni Müsavat"a maraqlı açıqlamalar

## "Rusiya Azərbaycana demək istəyir ki, "ehtiyatlı olun, biz də varıq""

## Ayaz Mütəllibov: "Savaş başlasa, Türkiyə bizə dəstək verəcək, buna inanıram"

***- Ayaz müəllim, istirahətinizi harda eləyirsiniz?***

- Bağda, Abşeronda.

***- Bağınız hansı tərəfdədir, dövlət tərəfindən verilib, yoxsa şəxsidir?***

- Bilgəh tərəflərdə. Yox, dövlətin deyil, şəxsidir.

***- Şimal küləyinin əsdiyi bu günlərdə istirahət necə gedir?***

- Təbiətin gözəlliyi elədir ki, şimal tərəfdən də, cənubdan da külək əssə belə, təki salamatlıq olsun!

***- Amma bəzən şimaldan əsən külək salamatlıq gətirmir...***

- Olur. Elə olur ki, siyasət təbiətlə uyğun gəlmir.

***- Elə siyasətə keçid eləyib soruşmaq istəyirəm, şimaldan əsən siyasi məzmunlu küləklərdən narahat deyilsiniz ki?***

- Məni heç nə narahat etmir. Heç məşğul da deyiləm, oxumuram.

***- Amma məncə, "Müstəqillik haqqında Konstiusiya Aktı"na imza atan, ölkəni BMT-yə üzv etmiş keçmiş prezident kimi narahat olmamağınız mümkün deyil.***

- Ola bilər. Ancaq dediyiniz hadisələr mənə çox baha başa gəldi. Mənim üçün, ailəm üçün qanqaraçılıq oldu.

***- Amma böyük qələbələr qurban tələb edir...***

- Əlbəttə ki. Elədir. Sözgəlişi dedim. Əlbəttə ki, ümumiyyətlə, dünyada baş verən hadisələr məni narahat edir. Allah millətimizi qorusun!

***- Ermənistan ordusunun Alxanlı kəndində törətdiyi qətliam barədə məlumatınız varmı?***

- Bəli, eşitdim o vəhşiliyi. Vallah, adam deməyə söz də tapa bilmir. Eşitdiyimə görə, bizim hərbçilərimiz onun cavabını yaxşı verdilər, düşməni cəzasız qoymadılar.

***- Bu hadisə onu deməyə əsas vermirmi ki, Ermənistanla danışıqların mənası yoxdur?***

- Onu mən çoxdan bilirəm. Dəfələrlə demişəm ki, əvvəla, Ermənistanın özündən də çox şey asılı deyil. Ermənistanın arxası var. Dediyimiz Qarabağın həllinin açarı Moskvadan asılıdır. Bu, hələ 90-cı ilin əvvəllərində bizə bəlli idi. Hələ sovet dövründən etibarən bu kəlməni işlədirdik. Sonra mütəmadi şəkildə illər boyu səsləndi. Sözün doğrusu, indiki rəhbərliyə çətin gəlir, çünki ciddi məsələdir və tarixi də var. Ona görə də düzgün deyil deyəsən ki, indi Moskvanın, Kremlin bu məsələni həll etməyə imkanı var. Bunu da bəhanə edərək bizə deyirlər ki, oturun üz-üzə, məsələnin həllini özünüz tapın! Yeni Azərbaycan və Ermənistan öz arasında razılaşsın.

***- Amma bu, daha çox oyun oynamağa bənzəyir...***

- Əlbəttə ki, oyundur. Azərbaycan Ermənistanla lap səhərdən-axşamadək oturub danışsa da, bu məsələ həll olunmayacaq. Çünki bu, prinsipial məsələdir, hər iki tərəf razı qala bilməz. Kompromisdən danışırlar. Nə kompromis ola bilər? Azərbaycan dövləti nə qədər kompromisə getməlidir? Elə indinin özündə bizim təkliflərimiz yaxşı bir kompromisdir də. Niyə qəbul olunmur?! Çünki bu işlərin arxasında qüvvələr var.

***- Keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov deyib ki, Ermənistana ilkin mərhələdə əhalinin təhlükəsizliyi üçün ordusunu 15 km geri çəkməklə bağlı ultimatum vermək lazımdır. Yalnız bundan sonra danışıqlarla bağlı hansısa addım atmaq olar. Bu barədə fikriniz necədir?***

- Düz fikirdir. İndiki dövrdə danışıqların bərpa olunmasının mənası yoxdur.

***- Ermənistan vaxtaşırı Rusiyanı Qərbə üz tutacağı ilə şantaj edir. İrəvanın Moskvadan qopması mümkündürmü?***

- Erməni Qərbdən ayrılmayıb ki, Qərbə də yaxınlaşsın. Qərbdə Ermənistanın çox güclü lobbisi var. Ermənistanın Qərbdəki gücünü şübhə altına almaq olmaz. Bu vaxta qədər acından ölən ölkəni xaricdən verilən pullara görə saxlayıblar. Ona görə də hər şey ola bilər.

***- Ermənistan boşalsa da, işğalçı ölkə Suriyadan köçürülənlərin hesabına da olsa, Qarabağda məskunlaşma siyasətini davam etdirir. Deməli, işğalçı kompromisə gəlmək niyyətində deyil. Bunun qarşılığında Azərbaycan nə etməlidir? Antiteror əməliyyatı, partizan müharibəsi, yoxsa...***

- Nə deyim vallah. Müxtəlif yollar var. Azərbaycan xalqının, cəmiyyətinin birliyi vacibdir. Daxili siyasətimiz elə işlənilməlidir ki, biz hər an müharibəyə hazır olaq. Çünki indiki şərtlər daxilində kimsə bu iki ölkəni bir-biri ilə yaxınlaşdırıb barışdıra bilməz. Ancaq haqq bizim tərəfimizdədir. Haqqı əsas tutsaq, bizə heç kim heç nə deyə bilməz. Hansısa məqamda əngəllər törədə bilərlər. Amma prinsipial şəkildə bizim arqumentimiz ciddidir. Deyə bilərik ki, bizi bu sərhədlər daxilində BMT-yə üzv qəbul edibləR, indi nə istəyirsiniz?! Təcavüzkar Ermənistanı yerində oturtmursunuz, Azərbaycanın səyləri nəticəsində BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi qəbul olunub. Ancaq bu vaxta qədər hansısa irəliləyiş əldə olunmayıb.

***- Erməni mənbələri məlumat yayıb ki, Rusiya-Ermənistan birgə sərhəd qüvvələri Dağlıq Qarabağla "sərhəd"də hansısa zərərli qüvvələrə qarşı təlim keçiblər. Hətta o qüvvələrin Qarabağ ərazisinə daxil olduğu da deyilir. Bu, Qarabağa rus ordusunun yeridilməsinin anonsu deyilmi?***

- Hər şey ola bilər. Təhlükəni istisna etmirəm.

***- Azərbaycan prezidentinin İstanbula son səfəri zamanı bir daha iki qardaş ölkənin rəhbərləri Qarabağla bağlı vahid mövqedən çıxış etdilər. Bəs həlledici məqamda Türkiyə Azərbaycan ərazilərinin işğaldan azad olunması üçün nə edə, hansı addımları ata bilər?***

- Türkiyənin özünün problemləri var və bu problemlər gün-gündən artır. Türkiyə dövləti həmişə bəyan edib ki, biz Azərbaycanla qardaşıq, bir xalqıq. Reallıq odur ki, bunların özləri də Ermənistandan çəkinir. Türkiyəyə də təzyiq var. Düzdür, Ermənistanla sərhədləri açmırlar, blokada məsələsində bizimlə eyni mövqedədirlər, amma şəxsən mənimçün bir balaca naməlum vəziyyət var. Ona da şübhə etmək olmaz ki, savaş başlasa, Türkiyə bizə dəstək verəcək, mən buna inanıram. Özü də təkcə Türkiyə yox, elə İran da...

***- Bu yaxınlarda Naxçıvanda Türkiyə-Azərbaycan birgə hərbi təlimləri keçirilində ermənilər çox narahat olmuşdular...***

- Əlbəttə ki, narahat olacaqlar. Narahat olmalarına da əsas var. Çünki bizim hərbi qüvvələrimiz elə bir səviyyədədir ki... İndi artıq 90-cı illər deyil. Hər cür imkanımız var. Bu vaxta qədər səbrimizi basıb dözmüşük. Amma bundan sonra sülh yolu ilə olmasa, digər varianta əl atılacaq. Çətin ki, Qərb tam mənada bizim tərəfimizi tutacaq. Hadisələr də göstərib ki, elə Qərbin müxtəlif institutları Azərbaycanla məşğul olur. Ay "burada demokratiya yoxdur", ya başqa cəfəngiyyatlar, heç ermənilərin adını da çəkmirlər. Belə bir qənaətə gəlmək olur ki, burada dini faktor da var.

***- Alxanlı qətliamından bir neçə saat sonra Rusiya Azərbaycana nota verdi, erməni əsilli vətəndaşlarının Bakıda, hava limanında incidildiyi iddia olundu. Sizcə, Rusiya bununla nə demək istəyir?***



- Zənnimcə, Azərbaycana demək istəyir ki, "ehtiyatlı olun, biz də varıq". Müasir siyasətin eybəcər sifəti budur!

***- Qarabağla bağlı ümumrespublika səviyyəsində toplantı, yaxud parlament müzakirəsinin keçirilməsinə ehtiyac görürsünüzmü? Mərhum prezident Heydər Əliyevin zamanında belə bir müzakirə olmuşdu.***

- Dediyiniz o zaman mümkün olar ki, prinsipial məsələ öz həllini tapsın. Prinsipial məsələ odur ki, Dağlıq Qarabağ respublika şəklində Azərbaycanın tərkibində olar, biz buna etiraz etmərik, razılıq verərik. Ancaq Dağlıq Qarabağ Azərbaycan torpağıdır! Məsələ bu şəkildə həll olunmalıdır. Mən birmənalı şəkildə deyirəm ki, Dağlıq Qarabağ məsələsinin həlli Ermənistandan asılıdır!

***- Son vəhşiliklərin ardınca hətta bir sıra rusiyalı ekspertlər də hesab edirlər ki, Ermənistanı yerində oturtmaq üçün Rusiya, nəhayət, sözünü deməlidir. Amma Kreml hələ ki kursu dəyişmək fikrində deyil. Razısınızmı?***

- Bu, doğrudur. Həqiqət budur ki, biz vaxtilə birmənalı şəkildə özümüz bu məsələnin ətrafında bütün səylərimizi birləşdirib hücuma keçə bilsəydik, məsələ həll olunardı. Ancaq bizim də başımız daxili məsələlərə qarışdı. O təlatümlü dövrdə imkan var idi. Moskva ilə də danışmaq olardı və onun köməyi ilə məsələni həll edəndən sonra gələcəklə də məşğul olardıq.

***- Sizin Moskvadakı hansısa dairələrlə əlaqələriniz qalırmı? Heç həmin dairələrlə əlaqə saxlayıb sözünüzü deyirsinizmi, çağırışınızı edirsinizmi?***

- Yox. Sözün doğrusu, mən orada yaşadığım zaman da ələqəm olmayıb. Mən Azərbaycanın vətəndaşıyam, vətəndaşlıqdan imtina etməmişəm. Ancaq bir ekspert kimi bir neçə dəfə necə ki, siz mənə zəng edib müsahibə alırsınız, onlar da zəng edib. Mən də açıq demişəm ki, hər şey sizin əlinizdədir.

***- Amma şübhə yoxdur ki, Rusiya Qarabağ məsələsində bir addım atmasının qarşılığında Azərbaycanın Gömrük İttifaqına, Avrasiya İqtisadi Birliyinə qoşulmasını istəyir, eləmi?***

- Yəqin ki.

***- Buna getmək olarmı?***

- Baxır bu, hansı şərtlərlə olacaq. Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü, gələcəyi təhlükə altında qalmamalıdır. Ona görə də birmənalı cavab vermək çətindir.

***- Belə fikirlər var ki, Azərbaycan ərazilərinin işğalına son verilməsi halında bu addımı atmaq olar...***

- Bəli, getmək olar. SSRİ kimi dövlətin aqibəti nə oldu? Demək olmaz ki, hər şey öz yerində qalmalıdır. Həyat davam edir, istiqamətlər dəyişir, yeni qüvvələr meydana çıxır. ABŞ-la Rusiyanın münasibəti də çox önəmli bir məsələdir. Görək bunların Cənubi Qafqazda, Azərbaycanın özündə əməkdaşlığı mümkün olacaq, ya yox. Azərbaycan ərazisi strateji əhəmiyyət kəsb edir, bunu hamı qəbul edir. Söhbət neft-qazdan getmir.

***- Gözləniləndən əksinə olaraq G-20 zirvəsində Vaşinqtonla Moskva arasında anlaşma əldə olunmadı...***

- Yox, mən heç anlaşma gözləmirdim də. Prezidentlər adi söhbətlə kifayətləndilər, sonrası Allah kərimdir. Ancaq məsələ bir görüşlə bitmir. ABŞ-ın özündə Trampı qəbul etməyən qüvvələr çoxdur. O, hələ tam mənada prezident kreslosunu ələ keçirə bilməyib.

***- Bugünlərdə Şimali Qafqazın partlayış ərəfəsində olduğu xəbərləri yayıldı. Necə bilirsiniz, Rusiyanı SSRİ-nin taleyi gözləyirmi?***

- Yox. Rusiyanın indiki obrazı hərbi istiqamətdə formalaşır. Yəni desək ki, Rusiyanın iqtisadi vəziyyəti ağırdır, ona görə ABŞ-la razılaşmalıdır, bu, doğru olmaz. Son illərdə Rusiya hərbi sferada çox böyük nailiyyətlər əldə edib.

***- Elə SSRİ-nin də hərbi uğurları kifayət qədər idi. Amma nəticə məlumdur.***

- SSRİ içəridən dağıldı, amma Rusiya prezidenti içərinin boğazından tutub. Qorbaçov unikal adam idi. Onun özünə mən dəfələrlə demişdim ki, ölkəni belə idarə etmək olar, siz neynirsiniz? Belə davam etsə, siz də buradan gedəcəksiniz, biz də sizinlə bir yerdə.

***- Ayaz müəllim, Putini dünyanın ən güclü lideri sayanlarla razısınız?***

- Bu qiyməti ona xalq qoyur. Mənim ona bu qiyməti qoymağım yersiz olar.

***- Bəs sizin fikrinizcə, bu gün dünyanın güclü lideri kimdir?***

- Mən belə bir adam görmürəm. Mümkün də deyil. Başqa vəziyyət yaranıb. Desən ki, ən güclü prezidentlərdən biri ABŞ prezidentidir, demokrat olan Obama batırdı, bir şey eləyə bilmədi, onun yerinə seçilən Tramp da hələ ki öz yerini tapa bilməyib. Ona görə də nəsə demək çətindir.

***- Müsahibənin sonunda keçmiş prezident olaraq xalqa, hakimiyyətə, müxalifətə ünvanlı sözünüz, çağırışınız varmı?***

- Mənim istəyim odur ki, Azərbaycan sağ-salamat bu yolda öz yerini tapsın, daha da möhkəm olsun. Ancaq bu möhkəmliyi, qüdrəti xalq təmin etməlidir, onda bizə batan olmaz. Bizə qarşı ordan-burdan müxtəlif çalışmalar olacaq. Bunun üçün bir olmalıyıq. Yerdə qalan məsələlər sonrakı işlərdir.

***- 2018-ci ildə Azərbaycanda prezident seçkiləri ilidir. Belə iddialar var ki, Kreml bu seçkilərdə iştirak etməsi üçün öz adamını hazırlayır. Belə bir təhlükə realdırmı?***

- Eşitmişəm. Sözün doğrusu, bu, nə deməkdir, necə ola bilər, bilmirəm. Ancaq real maraqları nəzərə alsaq, Rusiyanın da marağı var, imtina etmək olmaz. Əlbəttə ki, Rusiya 2018-ci il seçkilərini boş buraxa bilməz. Amma mən hesab edirəm ki, Azərbaycan-Rusiya münasibətləri indi də gözəçarpan dərəcədə yaxşı səviyyədədir.

***- Siz özünüz necə, 2018-ci il seçkilərinə qatılmaq istəmirsiniz ki?***

- (Gülür). Yox, yox.

**Elşad PAŞASOY**



# Kasetləri siçan yeyəndən sonra

**Zamin HACI**
zaminhaci@gmail.com

**Ədliyyə Nazirliyinə və prezidentin mühafizə xidmətinə işə düzəltmək adıyla camaatdan pul yığan adamın məhkəməsi gedirmiş. Heç beləsini də tutarlar? Gör necə istedad yiyəsidir. Əksinə, ona pul verənləri tutmaq lazımdır. Çünki dövlətimizdə peşə və vəzifələrin ancaq rüşvət yoluyla düzəlməsinə inanırmışlar. Respublikamızı dünyada biabır edirmişlər.**

Elə bu cür şübhəçilər üzündən günaşırı hansısa siyahıda Nigeriyanın, Burundinin, nə bilim, Fil Dişi Sahilinin yanında gedib dururuq. Lap təzəlikcə bir Amerika qurumu sosial tərəqqi indeksi adlı haqq-hesabı açıqladı, orada bizim analoqsuz tərəqqi etmiş çiçəklənən respublikamız... Somali ilə yanaşı durmuşdu. Bəli, yanılmadınız, Afrikada it yiyəsini tanımayan bir ərazi var, bax, Somali oradır. Hər kəs özünü prezident, nazir elan edir, quldurlar gəmiləri tutub soyurlar, uzun sözün qısası, lap bizdəki AXC-Müsavat cütlüyünün hakimiyyət illəri fason bir vəziyyətdədirlər.

Hərçənd bu indeksi hesablayanların ağlına keçə yamasaq azdır. Bəzi şeylərdə bizi haqsız olaraq pis, bəzi şeylərdə isə gülməli olaraq yaxşı göstəriblər. Örnək üçün, hesabata görə Azərbaycanda "informasiya əldə etmə, qidalanma və əsas tibbi xidmətlər" yüksək səviyyədədir. Yalansa bunu hazırlayanı bizdə müxbir işinə qoysunlar... Rəhmətliyin uşağı, mətbuatı, jurnalistikanı çoxdan dəfn eləmişik, indi məşğul olduğumuz ölünü ağlamaqdan başqa şey deyil. Adi sahə müvəkkilindən xəbər soruşmaq olmur, cəmiyyət isə bambılı telekanalizasiya şoularına baxaraq tam deqradasiyaya uğrayıb. O cümlədən, tibbi xidmət yüksək səviyyədədirsə, qəbristanlıqlar niyə cavan ölənlərlə doludur?

Yaxud yazıblar ki, guya bizdə tolerantlıq və inteqrasiya üzrə göstəricilər çox aşağıdır. Halbuki bizi oğurlayırlar, biz isə onlara tolerantlıq göstəririk, lazım gəlsə inteqrasiya eləmək üçün ölürük, deyirik kaş bizə də oğurlamağa şərait yaradılaydı.

Nəsə, belə boş-boş söhbətlərə çox vaxt ayırdıq, oxuculardan üzr istəyirəm. Yenə bu müddətdə Məmmədyarovun Nalbəndyanla görüşü, Qarabağ danışıqları haqda vacib xəbərləri oxuyardınız. Ya da Eldar müəllimə açılması gözlənilən cinayət işi haqda.

Yəqin bu şok, qandonduran, tükürpədici informasiyadan xəbəriniz var. Axır ki, Azərbaycan məhkəməsi keçmiş MTN şefi Eldar Mahmudov haqda cinayət işi başlanması üçün prokurorluğa təqdimat yazıbdır. Eldar müəllimin nazirliyinin yağmalanmasından, generallarının damlanmasından hardasa 20 ay - 2 ilə yaxın vaxt keçərkən məhkəmənin birdən qeyrətə gəlməsi nəyin əlamətidir? Yuxarıdan tapşırıq bu müddətdə poçtda ilişib qala bilərdimi? Axı rabitədən də xeyli rəisi-zadı qoduqluğa basıblar, nə desən mümkündür.

Ancaq mən düşünürəm ki, 2 il müddət Eldar müəllimin əlindəki, ehtimal olunan kompromatlarla bağlıdır. Hakimiyyət ya bu kompromatları artıq əlinə keçirib zərərsizləşdirib, ya da daha bunların qara qəpiklik önəmi qalmayıbdır. Bizdə adətən belə olur axı. Bəzi oğruların, cinayətlərin reabilitasiyası üçün, Əblüfəz bəyin sözünü ironik təkrar eləsək, "zamana ehtiyac vardır". Elə adam var ki, əlinin çeçələ barmağını tərpədəndə yüzlərlə adamı öldürüb, evləri dağıdıb, obaları viran qoyub, ancaq biz onu illər ötəndən sonra az qala milli qəhrəman səviyyəsində təpəmizə qaldırmışıq. Adam var torpaqlarımızın işğalında, ruslara və ermənilərə xidmətdə hamıdan artıq can qoyub, ancaq indi yüksək səviyyədə həyasızlıqla başqalarını ittiham edir. Baxırsan, əlin üzündə qalır. Bilmirsən nə deyəsən.

Bu mənada, Eldar müəllimin kompromatları da artıq zamanın ələyindən keçmiş, zibilə çıxmışdır, daha kimsəni qorxutmur. İndi, necə deyərlər, "gəlinin bəzədilməsi" dövrüdür, Eldar müəllimin yığdıqlarını əlindən almaq vaxtıdır.

Ondan sonra ədliyyə və mühafizəyə işə düzəldən adamı buraxmaq da olar. Bunun yığdığı daha ağır gəlməlidir.

Üçüncü hal da mümkündür: Eldar müəllim kasetləri pis saxlayıb, onlar korlanıblar. ANS də neçə vaxtdır ağlaşma qurub, deyirlər arxivimiz pis hava, saxlanma şərtlərində yararsız hala düşür.

# Rusiya imperiya siyasətini cilalayır

**Rusiyanın "balanslaşdırıcı" Qarabağ siyasəti davam edir. Əfsus ki, bu siyasət heç də ədalətli vasitəçilik istəyindən qaynaqlanmır və konfliktin həllinə deyil, bölgədə Rusiya maraqlarını daha yaxşı qorumaq naminə dondurulmasına xidmət edir. İllərdir Azərbaycanı və Ermənistanı silahla təchiz edən Moskvanı bu üzdən tərəflərin müharibə vəziyyətində olması qətiyyən qayğılandırmır.**




## Bakıya və İrəvana silah, Qarabağa rus əsgəri - Kremlin təzə "balans" siyasəti

### Azərbaycana növbəti partiya yeni silahlar göndərən Rusiya eyni gündə Ermənistanla birgə hərbi təlim keçirib və təlim bəhanəsi ilə işğal altındakı Dağlıq Qarabağa rus sərhədçiləri keçib; "Moskva yeni müharibədə maraqlıdır" - iddia

Aydındır ki, problemin həllində real dönüşün yaranması Moskvanın Azərbaycana və Ermənistana silah satmasını avtomatik şəkildə gündəmdən çıxaracaq. Necə deyərlər, Rusiyanın regiondakı silah bazarı bağlanacaq, buradakı (işğalçı Ermənistandakı) rus hərbi bazalarına ehtiyac qalmayacaq.

Bu xüsusda o da aydındır ki, Kreml konfliktin həllini süni şəkildə uzatmaqla və hər iki tərəfi silahlandırmaqla onları, ilk növbədə də Ermənistanı özündən daha güclü siyasi asılılığa salmağa çalışır. Başqa sözlə, hərbi faktor Rusiya üçün tərəfləri öz orbitində saxlamağa hesablanmış mühüm amillərdən biridir və Kreml, deyəsən, ondan tezliklə vaz keçməyə hazırlaşmır. Daha bir neçə təzə fakt.

***

Srağagün Azərbaycana növbəti partiya Rusiya silah-sursatı və hərbi təyinatlı avadanlıqlar gətirilib. Müdafiə Nazirliyindən verilən məlumata görə, budəfəki tədarük də iki ölkə arasında əvvəllər əldə olunmuş razılaşmalar əsasında reallaşıb. Bundan təxminən 10 gün qabaq isə Bakı Rusiyadan başqa bir partiya ağır hərbi texnika və döyüş sistemləri almışdı.

**Və təbii ki, budəfəki silah göndərişi də Ermənistanda kəskin qıcıq və narahatlıq doğurub. Hətta bəzi erməni ekspertləri bunu "Rusiyanın Azərbaycanı Ermənistana qarşı müharibəyə təşviq eləməsi" kimi şərh ediblər. Məsələn, musavat.com-un məlumatına görə, bu barədə 1in.am saytının siyasi şərhçisi Sərkis Arsruni yazıb:** "Bu fakt konkret siyasi məqsəd güdür: Azərbaycan növbəti dəfə nəinki açıq şəkildə müharibəyə hazırlaşdığı haqda siqnal verir, həmçinin işarə vurur ki, bunu Moskvanın razılığı ilə olmasa da, susqun razılığı əsasında edir. Cəbhədəki son eskalasiyalar fonunda da növbəti partiya Rusiya silah-sursatı Azərbaycana göndərilməsi onu göstərir ki, Moskva yeni müharibədə maraqlıdır - böyük ehtimalla da o ümidlə ki, regionda bu yolla öz təsirini gücləndirəcək".

**Erməni analitik daha sonra hadisəyə rəsmi İrəvanın susqun reaksiyasını sərt şəkildə qınayaraq qeyd edir:** "Yeni müharibənin qızışdırılmasında Azərbaycanla yanaşı, eyni dərəcədə Rusiya cavabdehdir. Belə vəziyyətdə özünə az-çox hörmət edən Ermənistan hakimiyyəti ən azından, ölkəmizin Avrasiya İqtisadi Birliyi və KTMT-də üzvlüyünü dondurardı - ta o vaxta qədər ki, Moskva müvafiq izahatla çıxış eləsin. Fəqət, rəsmi İrəvan ən yaxşı halda qorxaq mühakimə ilə kifayətlənir ki, "böyük qardaşı" incitməsin".

**Erməni ekspertə görə, Rusiya məsələsi parlament müxalifəti üçün də mühüm mövzu olmalıdır:** "Çünki problem artıq dünya görüşü və ya geosiyasi oriyentirlər məsələsi deyil, ölkəmizin və xalqımızın təhlükəsizlik məsələsidir. Bəlkə də müstəmləkəçilikdən qurtulmaq və azadlıq əldə eləmək gündəliyi ilə ölkədə güclü bir hərəkat başlatmaq mümkün olsun - hansı hərəkat ki, nəinki Qarabağ məsələsində qələbəmizi təmin edər, eyni zamanda keyfiyyətcə yeni tip dövlətin yaranmasının əsaslarını yaradardı".

***

Əlbəttə ki, erməni siyasi icmalçının son fikri blefdən, illüziyadan başqa bir şey deyil. Çünki Ermənistan adlı saxta dövlətin Rusiya müstəmləkəsindən qurtulması nəinki Dağlıq Qarabağ məsələsində "İrəvanın qələbəsini" təmin etməyəcək, üstəlik, Ermənistanın özünün varlığını böyük sual altına qoyacaq. Ona görə ki, Azərbaycan işğalçını layiqincə cəzalandırmaq üçün önündə daha Rusiya əngəlini görməyəcək.

Məsələ də ondadır ki, nəşükür ermənilər etiraf eləməsə belə, məhz Rusiya Ermənistan adlı qondarma dövlətin əsas qarantı olaraq qalır. Hamı bilir ki, Ermənistanın iqtisadi, energetik sferası Rusiyanın nəzarətindədir, bu ölkədəki rus hərbi bazaları ən əvvəl onun təhlükəsizliyi üçün və İrəvanın yazılı xahişi ilə Ermənistandadır. Ermənistanın Türkiyə və İranla sərhədlərini də yenə məhz 1992-ci il 30 sentyabr razılaşmasına uyğun olaraq, Rusiya sərhədçiləri (Federal Təhlükəsizlik Xidməti) qoruyur. Yerdə nə qaldı ki?

Yeri gəlmişkən, Bakıya növbəti partiya silah göndərildiyi gün Ermənistanda İran-Ermənistan sərhədi yaxınlığında Rusiya ilə Ermənistan ortaq hərbi təlim keçirib. Erməni qaynaqlarının məlumatına görə, həmin təlimlərdə İran-Ermənistan sərhədini keçən şərti sərhəd pozucularının Rusiyanın Mehridəki sərhəd dəstəsinin köməyi ilə yaxalanma ssenariləri işlənib.

Maraqlıdır ki, təlimlərin bir hissəsinin Dağlıq Qarabağ ərazisində keçirildiyi açıqlanıb. Belə ki, İran-Ermənistan sərhədini keçən 2 şərti sərhəd pozucusu Ermənistanla "DQR"in inzibati sərhədini aşaraq dağlıq ərazidə gizlənməyə cəhd edib. "Pozuculardan biri dağlıq ərazidə, digəri isə dron vasitəsilə yaxalanıb" - deyə rəsmi açıqlamada deyilir.

Göründüyü kimi, əslində söhbət təlim adı ilə Rusiya hərbçilərinin işğal altındakı Dağlıq Qarabağa qanunsuz, Bakının icazəsi olmadan keçməsindən gedir. Bu isə yumşaq desək, artıq Rusiya tərəfdən də təxribatçı bir addımdır və rəsmi Bakının əsəblərini yoxlamağa hesablanıb. O üzdən də buna Azərbaycanın reaksiyası labüd görünür.

**Bu xüsusda istipress.com-un şərhi də maraqlıdır:** "İran Qarabağa hücum etmək istəyir". Erməni KİV-lərinin Rusiya Federal Təhlükəsizlik Xidməti (FTX) və Ermənistan Milli Təhlükəsizlik Xidmətinin (MTX) İrandan sərhəd pozucularının Dağlıq Qarabağa sərhəd müdaxiləsi cəhdlərinin qarşısının alınması üzrə birgə təlimləri barədə məlumatlarını yalnız belə adlandırmaq olar. Bəllidir ki, Azərbaycanın bu regionu nə İranla, nə Rusiya ilə, nə də Ermənistanla heç bir sərhəddə malik deyil. Bu təlimlərin bütün ssenarisini İrəvanda düşünüblər. Orada hansısa yolla çalışırlar ki, Qarabağın adı Rusiya və Ermənistanla birlikdə çəkilsin. Dünyanın hansısa ölkəsində hansısa evin və ya küçənin sakinləri Dağlıq Qarabağın müstəqilliyini tanıyanda Ermənistan paytaxtında çox sevinirlər. Dərhal hökumətə yaxın ekspertlər, politoloqlar şişirdirlər ki, ikinci erməni dövlətinin tanınması ilə bağlı hansısa mikroaddım atılıb. Son zamanlar erməni rəhbərliyi belə xəbərlə özünü sevindirə bilmir. Buna görə də İrəvan rejimi təlim adlandırdığı bu oyunu düşünüb ki, Qarabağın adı ilə Ermənistanı və Rusiyanı bir araya gətirsinlər".

***

**Beləcə, Moskva bir yandan, Azərbaycana dünya bazarı qiymətinə silahlar, hərbi texnika satırsa, o biri yandan işğalçı Ermənistanı da unutmur, ona da ucuz qiymətə və ya havayı silah ötürür və arada bu cür ortaq təlimlərlə İrəvanın könlünü almağa çalışır. Erməni əsilli Rusiya vətəndaşlarının Bakıya buraxılmaması ilə bağlı Alxanlı faciəsi günü Moskvanın Azərbaycana əsassız nota verməsi də eyni məqsəddən qaynaqlanırdı.**

**Kremlin "balanslı" Qarabağ siyasəti beləcə, davam edir. Əslində isə o, bununla özünün regiona yönəlik imperiya siyasətini cilalayır...**

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 145 (6759) 12 iyul 2017

**Ermənistanda Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yeni təbliğat başlayıb. İddia edirlər ki, beynəlxalq hüquqa görə Dağlıq Qarabağ münaqişəsinin başlanması və Dağlıq Qarabağ ermənilərinin Azərbaycandan ayrılmaq barədə qərarından 25 ildən artıq vaxt keçdiyi üçün guya məsələ avtomatik olaraq həll olunmuş sayılır. Ermənilərin təbliğatında iddia edilir ki, guya beynəlxalq hüquqda konfliktin bu cür həll yolu əksini tapır.**



# Ermənistandan Azərbaycana "25 illik müddət" təxribatı - təbliğat savaşı

## Erməni həyasızlığı daha bir uydurmanı ortaya atıb

**Politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a açıqlamasında Ermənistanın belə bir təbliğat aparmasının fantaziya olduğunu bildirdi. Politoloq vurğuladı ki, beynəlxalq hüquqda münaqişələrin həllində belə bir məsələ yoxdur: "Fələstin ərəbləri 50 ildən çoxdur ki, öz hüquqları uğrunda mübarizə aparır. Hətta Fələstin probleminin həlli ilə bağlı müxtəlif sazişlər imzalanıb, lakin o sazişlər hələ də yerinə yetirilməyib və münaqişə 50 ildən artıqdır davam edir. Keçmiş SSRİ məkanında digər respublikalarda da münaqişəli ərazilər var. Məsələn, Abxaziya, Cənubi Osetiya, Dnestryanı ərazilər. Bu münaqişələrin də başlamasından 25 il keçir. Amma onların heç biri ermənilər kimi uydurmur ki, guya beynəlxalq hüquqda 25 il söhbəti var.

Ermənilərin 25 il müddət söhbətini ortaya atması beynəlxalq hüquqla zərrə qədər əlaqəsi olmayan uydurmadan başqa bir şey deyil. Ermənilər bu uydurmanı ortaya atıb, sadəcə, təbliğat müharibəsi aparırlar".

**Q.Hüseynli qeyd etdi ki, beynəlxalq hüquq münaqişənin başlamasından hətta 100 il də keçsə də ermənilərin bu uydurmasını nəzərdə tutmur. Beynəlxalq hüquq yalnız problemin həlli ilə bağlı məsələlər üzərində köklənib və bu məsələlərin hüquqi şərhini verir:** "Digər tərəfdən, nəzərə almaq lazımdır ki, Dağlıq Qarabağ BMT tərəfindən və dünya ölkələri tərəfindən rəsmən Azərbaycan dövlətinin ərazisi olaraq qəbul edilib, bu ərazilər tarixi Azərbaycan əraziləridir və mübahisəli ərazilər olaraq dünyada tanınmır. Dağlıq Qarabağı ermənilər özləri mübahisəli ərazi kimi tanıtmaq istəyirlər. Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını mübahisəli ərazi kimi qəbul etdirməyə çalışırlar. Azərbaycan dövlətinə isə beynəlxalq hüquq da imkan verir ki, işğal altında olan öz ərazilərini azad etsin. Beynəlxalq hüquq istər beş il, istər 15, istər 25, istər 55 il sonra da olsa Azərbaycana bu hüququ tanıyır. Beynəlxalq hüquqda belə bir şey yoxdur ki, münaqişənin başlanmasından 25 il keçibsə və münaqişə bitməyibsə, işğal edilmiş ərazilər işğal edən tərəfindir. Azərbaycanın tam hüquqi var ki, istənilən an hərbi güc ilə öz ərazilərini işğaldan azad etsin. Ermənilərin təbliğat və təxribat məqsədilə ortaya atdığı məsələ o dərəcədə absurddur ki, bu barədə xüsusi izahatlara belə ehtiyac yoxdur. Hər şey avtomatik həll olunsaydı, onda dünyada beynəlxalq hüququn mövcudluğuna ehtiyac olmazdı. Erməni həyasızlığı o dərəcədədir ki, beynəlxalq hüquq normalarına belə, öz aləmlərində uydurmalar sırımağa çalışırlar.

Azərbaycan öz ərazi bütövlüyünü təmin etmək üçün gec-tez bütün vasitələrdən istifadə edəcək. Hələ ki məsələnin siyasi danışıqlar müstəvisində həlli tapılmağa çalışılır. Əgər burada imkanlar tükənəcəksə istənilən an Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmək üçün əlində olan digər vasitələrdən istifadə edib ərazi bütövlüyünü təmin edəcək. Ermənilər unutmamalıdırlar ki, Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaranmasına heç bir zaman imkan verməyəcək".

**Tanınmış konlfiktoloq Əvəz Həsənov da bildirdi ki, Ermənistanda ortaya atılan bu təbliğat-iddia heç bir beynəlxalq hüquq normalarında əksini tapmayıb:** "Ermənistanda öz xalqının iqtisadi və demoqrafik bəlaya düçar olmasına əhəmiyyət verməyərək xülyaları ilə ermənilərin başını qatan siyasətçilər az deyil. Onlar 25 ildir erməni xalqını aldadırlar ki, artıq Dağlıq Qarabağ problemi həll olunub, bu gün-sabah Azərbaycan Qarabağı tanıyacaq, işğal olunmuş rayonların bir qismini beynəlxalq ictimaiyyət və Azərbaycan onlara güzəştə gedəcək, ermənilər qonşu dövlətlərin ərazilərinə iddia edə-edə Cənubi Qafqazda firavan yaşayacaqdır. İndi həmin siyasətçilər 25 ildir ki, müharibəni müvəqqəti udsalar da onun nəticəsində Qarabağın tanınmasına nail olmayıblar, əksinə, yeni müharibə təhlükəsi ilə üzləşiblər. 25 ildir ki, Dağlıq Qarabağ münaqişəsinin hər iki tərəflərin maraqları nəzərə alınmaqla həll olunmasına mane olurlar. Belə olan halda bir neçə il bundan əvvəl səsləndirdikləri ideyaya önəm verirlər ki, "Dağlıq Qarabağ beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunacaq və artıq Azərbaycan fakt qarşısında qalıb nəticəni qəbul edəcək". Mən hər zaman beynəlxalq tədbirlərdə çıxışlarım zamanı belə birtərəfli illüziyalara cavab olaraq deyirdim ki, yaxşı olar ki, münaqişənin real həlli üçün səy göstərəsiniz. Bu real həll Ermənistan və Azərbaycan üçün uduşlu olmayacaq, amma hər iki xalq arasında mövcud olan problemi həll edəcəkdir".

❑ **Etibar SEYİDAĞA**

# Lapşinin məhkəməsi təxirə düşdü

**Bakı Ağır Cinayətlər Məhkəməsində Azərbaycanda həbsdə olan blogger Aleksandr Lapşinin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib. APA-nın məlumatına görə, hakim Əlövsət Abbasovun sədrliyi ilə keçirilən iclasa sədrlik edən hakim Əlövsət Abbasov bildirib ki, Ekspertiza Mərkəzindən məhkəməyə məktub daxil olub.**




Məktubda bildirilir ki, mərkəzin əməkdaşı Almaz Bayramova hazırda məzuniyyətdə olduğundan məhkəməyə gələ bilmir. Onun iştirakı yalnız sabah təmin edilə bilər. Buna görə məhkəmə prosesi iyulun 12-dək təxirə salınıb.

Qeyd edək ki, ayrı-ayrı dövlətlərin vətəndaşlığını daşıyan A. Lapşin Azərbaycanın dövlət sərhədini qanunsuz olaraq keçmə, ərazi bütövlüyünü parçalamağa yönələn açıq çağırışlar etmə əməllərinə görə Azərbaycan Baş Prokurorluğunun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində istintaqı aparılan cinayət işi əsasında təqsirləndirilən şəxs qismində cəlb edilərək beynəlxalq və dövlətlərarası axtarışa verilməsi ilə əlaqədar 2016-cı il dekabrın 15-də Belarus Respublikasının hüquq-mühafizə orqanları tərəfindən Minskdə saxlanılaraq, 2017-ci il fevralın 7-də Azərbaycan Respublikasına ekstradisiya edilib.

A. Lapşin Cinayət Məcəlləsinin 281.2 (dövlətə qarşı açıq çağırışlar) və 318.2 (sərhədi qanunsuz keçmək) maddələri üzrə ittiham olunur.

# Samboçu Battulqanın zəfəri, monqolların iti zəkası



**Xalid KAZIMLI**

**2014-cü ilin sentyabr ayının 4-ü idi. Rusiya prezidenti Vladimir Putin Monqolustana səfər etmişdi. Paytaxt Ulan-Batorun mərkəzi Çingizxan meydanında rəsmi mərasim təşkil olunmuşdu. Putin mərkəzdə dayanmışdı və onun şərəfinə Rusiyanın dövlət himni səslənirdi.**

Birdən-birə, heç kəsin gözləmədiyi halda, Putinin gözlərindən yaş süzüldü. O boyda dövlətin başçısı, dünyada və regionda milyonlarla adamın anasını ağladan adam ağlayırdı.

Putinin ağlamasının səbəbi haqda elə həmin gün yazılar yazdıq, təxminimiz beləydi ki, Putin himn səslənərkən bir zamanlar bu dövlətin sərkərdələrinin Macarıstana qədər yürüş edərək yüzlərlə milləti, o cümlədən rusları zəlil-zəbun etmələrini xatırlayıb və indi Çingiz xanın, Batı xanın, Ogeday xanın züryətlərinin onun qarşısında necə mil dayandıqlarını seyr edib, öz dövlətinin qüdrətini, zəif monqol dövlətinin bu gününü görüb və istər-istəməz qəhərlənib.

Yəqin ki, məhz beləydi. Hər halda Putin başqa vaxt öz dövlətinin himnini dinləyərkən kövrəlib ağlamamışdı.

Ondan fərqli olaraq, Koreya yarımadasından Macarıstana qədər uzanan azman imperiyanın yerində, hazırda cəmi iki dövlətlə sərhədi olan, Rusiya və Çinin arasında sıxışıb qalan, xəritədəki yeri qarğa yuvasına bənzəyən müasir Monqolustan dövlətinin rəhbəri Çaxiaqiyn Elbeqdorj hər iki dövlətin himnini emosiyasız dinləyirdi, Putinlə yanaşı durmağın qürurunu yaşayır, onun yanında bir az da əzik görünürdü.

Budur, 800 ildən çoxdur ki, monqollar keçmiş əzəmətlərini bərpa etmək, dirçəlmək istəyirlər. Amma heç cür mümkün olmur. Monqolların böyük əksəriyyəti, 25 milyondan çoxu Çinin Daxili Monqolustan adlanan muxtar qurumundan yaşayırlar. Müstəqil Monqolustanın öz əhaisi isə təxminən 3 milyon nəfərdir. Bunun da yarısı monqoldur, yarısı isə qazaxlar, tuvalar, bayadlar, buryatar və onlarca başqalarıdır.

Monqolustan kasıb, aqrar, xammal istehsal edən ölkədir. Ancaq bu ölkə gələcəyə inamla baxır, əski şöhrətini, əzəmətini bərpa etməyin yolunu tapmış kimi görünür.

Bundan ötrü Monqolustan nə totalitar Çinə, nə də avtoritarizm yuvasına dönmüş Rusiyaya meyllənir, o, ABŞ-a baxır, Yaponiyaya, Cənubi Koreyaya bənzəməyə çalışır.

Uzun sözün kəsəsi, müasir monqollar demokratiya yolundadırlar. Ötən əsrin sonlarında sovet sosialist respublikası olaraq Rusiyanın quberniyası, vassalı olmaqdan qurtulmuş Monqolustan elə o vaxtlardan qanuni, azad seçkilər keçirməyə başlayıb. Demokratiya və insan haqları sahəsində bu ölkədə müəyyən problemlər yaşansa da, heç bir lider və partiya Monqolustanda avtoritar idarəçilik üsulları bərqərar edə bilməyib.

Bu günlərdə Monqolustanda prezident seçkiləri keçirilib və müxalifətin lideri , Demokratik Partiyanın namizədi, iş adamı Xaltma Battulqa qalib gəlib.

54 yaşlı iş adamı səslərin 50,7 faizini qazanıb. O, keçmiş idmançıdır, vaxtilə sambo üzrə dünya çempionu olub.

Bir biznesmeninin qalib gəlməsi göstərir ki, artıq Monqolustanda siyasi populizm keçmir, insanlar güzəranlarını düşünürlər və anlayırlar ki, onları bu vəziyyətdən özü uğurlu iş adamı olan Battiulqa çıxara bilər.

Aparıcı dünya dövlətlərinin, nəhəng maliyyə qurumlarının, fondların Monqolustana münasibəti yaxşıdır. Onlar demokratiya yolunda olan bu dövlətin inkişafı, tərəqqisi üçün milyardlarla dollar həcmində investisiya qoymağa hazırdırlar.

Bu isə o deməkdir ki, dünyada demokratiyanın gerilədiyi bir vaxtda öz azad və qanuni seçkiləri ilə dünyanın diqqətini cəlb etmiş, dövlət başına yeni qüvvələri gətirmiş Monqolustan xalqı sabit inkişaf yoluna qədəm qoyacaq. Əgər bu işi yeni iqtidar komandası bacarmasa, ondan bir sonrakı komanda bacaracaq. Demokratiyanın üstünlüyü budur. İdarə edə bilməyən gedir, yerinə başqası gəlir. Onu da yada salaq ki, 6-7 il öncə yanacağın qiyməti 1-2 tuqrik artırılmışdı deyə, yeddi nazir bir gündə istefa vermiş, bu addımın "monqol xalqının mənafeyinə zidd " olduğunu açıqlamışdılar...

Biz burada Avropanın ucqarında, Asiyanın astanasında oturaraq, o uzaq Asiya ölkəsi haqqında bəzən aşağı-yuxarı sözlər danışırıq, hətta şovinizmə varan ifadələr işlədirik. Halbuki müasir monqollar öz iti beyinləri, dərin zəkaları ilə dünyanın hara getdiyini, inkişafa aparan yolun nədən ibarət olduğunu bizdən daha aydın dərk edirlər.

Gün gələcək, samboçu prezident Battiulqa samboçu prezident Putinlə yanaşı durub himn dinləyəndə əzik görünməyəcək.



# Erməni kilsəsi - dini ekstremizm mənbəyi

Kənan RÖVŞƏNOĞLU

**Cəlil Məmmədquluzadə hələ 100 il əvvəl "Molla Nəsrəddin" jurnalında "Erməni keşişi və azərbaycanli axundun fərqi haqda" başlıqlı yazısında erməni keşiş və azərbaycanlı (müsəlman) mollanın fərqlərini yazanda maraqlı bir detala işarə eləmişdi. Azərbaycanlı molla başına yığdığı camaata hədis, dini rəvayət danışdığı halda keşiş başına yığdığı ermənilərə erməni xalqının daim zülmə məruz qaldığını söyləyir və onları savaşa səsləyir.**

Bu felyetonda Cəlil Məmmədquluzadə əsasən müsəlmanların geriliyini hədəfə alsa da, özü də hiss etdirmədən bir maraqlı detalı tarixə həkk edir. Bəli, erməni kilsəsi tarix boyu bu xalqın əsas ideoloji mərkəzi rolunu oynamaqla yanaşı, həm də erməni cinayətlərinin əsas ilhamvericisi, havadarı olub, bu gün də belədir. Həm ötən əsrin əvvəlindəki qətliamlar, həm ikinci Qarabağ müharibəsi zamanı ermənilərin Azərbaycana qarşı müharibəsində əsas mənəvi-ideoloji mərkəz rolunu Eçmiədzin kilsəsi oynayıb.

Əlbəttə, uzun bir tarixi mərhələdə dövləti olmayan ermənilərin siyasi-ideoloji mərkəzi rolunu kilsənin (Eçmiədzin kilsəsi) oynaması, necə deyərlər, bir növ tarixi zərurət olub. Bu gün də erməni kilsəsi həm müstəqil dini mərkəz kimi rolunu qoruyub saxlayıb, həm də erməni cəmiyyətində güclü təsiri olan qriqoryan məzhəbi etnik bir məzhəb olduğu, yəni yalnız ermənilər arasında yayıldığı üçün erməni qriqoryan kilsəsi və onun iki əsas mərkəzindən biri olan Eçmiədzin Ermənistan əhalisi üçün milli-dini mərkəz rolunu oynayır.

Təbii ki, heç bir din və onu gətirən peyğəmbər insanları öldürməyə, günahsız insanlara əziyyət verməyə çağırış edə bilməz. Bu, dinlərin İlahi missiyası ilə üst-üstə düşmür. Ancaq tarixi təcrübə onu göstərir ki, dinlər bir çox hallarda xalqların, dövlətlərin legitimliyini, xalqların birliyini təmin edən əsas qüvvə olub və bu gün də olmaqda davam edir. Və bu zaman təəssüf ki, dinlər həm də bir çox cinayətlərə alət edilir.

Biz bunun ən acı örnəyini indi müsəlman şərqində müşahidə edirik. Bu mövzu ciddi şəkildə qabardılmasa da, Azərbaycan xalqına qarşı qəddar cinayətlərin ilhamvericisi erməni qriqoryan kilsəsi olub. Azərbaycan xalqı həm də erməni-xristian dini ekstremizmindən əziyyət çəkib. Qarabağda xaçla işarələnən erməni tankları, keşişin xeyir-dua verdiyi erməni silahlılarının rəsmləri internet saytlarında hələ də var.

Təəssüflə qeyd etmək lazımdı ki, kilsə ötən illərdə nə müharibə zamanı, nə də atəşkəs dönəmində sülhsevər missiya ilə çıxış etməyib. Erməni cəmiyyətində böyük nüfuzu olan katalikosun, Eçmiədzin kilsəsinin hansısa sülh çağırışının yaxud humanizmə dəvət bəyanları ilə rastlaşmadıq. Ancaq bunun əvəzinə Qarabağda işğal qüvvələrinə xeyir-dua verən keşişləri, xarici ölkələrdə erməni qüvvələri üçün ianə toplayan kilsə nümayəndələrini gördük. Halbuki iki Qafqaz respublikası arasında savaşın, ya da ən azı qeyri-insani savaşın durdurulmasında din xadimləri rol oynaya bilərdilər. Nəticədə minlərlə azərbaycanlı hələ də erməni əsiriliyində qalmazdı, əsir düşənlər, girovlar geri qaytarılar, ən azı, müharibə qanunlarına, dinlərin tələb etdiyi insanpərvərliyə riayət oluna bilərdi.

Atəşkəs dövründə erməni katalikosu Azərbaycana səfər edib, hətta Bakıdakı erməni kilsəsini də ziyarət edib. Ancaq təəssüf ki, bu səfərlərin, görüşlərin heç bir müsbət nəticəsi olmayıb. Ya da ən azı nəzərəçarpan nəticəsi olmayıb. Qeyd etdiyimiz kimi, hər iki tərəfdən din amili, dini mərkəzlər savaşda humanizm və insanpərvərlik qaydalarına riayət olunmasında önəmli rol oynaya bilərdi. Amma təəssüf ki, ötən illərdə bunun əksini gördük, erməni kilsəsi Azərbaycana qarşı amansız müharibənin ilhamvericisi kimi çıxış etdi.

Son olaraq Alxanlı kəndində dinc insanların atəşə tutulmasından sonra Qafqaz Müsəlmanları İdarəsi Eçmiədzinə müraciət etsə də, hələlik bir reaksiya yoxdur.

# Daha bir həkim və sınıqçı səhvi faciə ilə bitdi: 9 yaşlı uşaq öldü - təfərrüat

## Ağdaşda qolu sınan yeniyetmə əməliyyat stolunda tələf oldu; faktla bağlı cinayət işi başlandı; məsələyə Səhiyyə Nazirliyindən reaksiya gəldi...

**Ağdaş Mərkəzi Rayon Xəstəxanasına sağ said sümüyünün sınığı xəsarəti ilə daxil olan Qəbələ rayon Qaradeyin kənd sakini, 2008-ci il təvəllüdlü Seymur Qoşqar oğlu Mehralıyev orada ölüb. İlkin məlumata görə, S.Mehralıyev əməliyyata alınarkən ona verilən narkozun təsirindən dünyasını dəyişib. Uşağa narkozu həkim Nizaməddin Məsimov verib.**

Ağdaş Mərkəzi Rayon Xəstəxanasının baş həkimi Nuri Nuriyev axar.az-a deyib ki, uşağın ölümünə səbəb anafilaktik şok olub. İynə vurulduqdan sonra uşağın ürəyi dayanıb. Baş həkimin sözlərinə görə, istənilən əməliyyatda anafilaktik şok ola bilər: "Qəbələ rayon sakini 2008-ci il təvəllüdlü Mehralıyev Seymur dünən sağ said sümüyünün sınığı xəsarəti ilə xəstəxanaya gətirilib. Cərrahiyyə əməliyyatına başlamazdan öncə metilin iynəsi vurulub. Bundan sonra xəstə anafilaktik şok keçirib və uşağın ürəyi dayanıb. Belə hallar nadir hallarda baş versə də, qaçılmaz haldır".

**Baş həkimin sözlərinə görə, xəstəni vəziyyətdən çıxarmaq üçün əllərindən gələni ediblər:** "Ekspertiza təyin edilib. Müayinədən sonra xəstənin ölüm səbəbi dəqiq bilinəcək".

**Ağdaş Mərkəzi Rayon Xəstəxanasında baş verən ölüm hadisəsi ilə bağlı araşdırma başlanıb. Səhiyyə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Səfayə Əhmədova lent.az-a bildirib ki, hazırda faktla bağlı Ağdaş Rayon Prokurorluğu tərəfindən araşdırma aparılır. S.Əhmədova onu da qeyd edib**




**ki, ölüm halı Səhiyyə Nazirliyinin Uşaq və yeniyetmələrə göstərilən tibbi xidmətin yaxşılaşdırılması və ölüm hadisələrinin araşdırılması üzrə Komissiyası tərəfindən də araşdırılacaq. Komissiyanın sədri, respublikanın baş pediatrı Nəsib Quliyev bildirib ki, ilkin məlumata görə, həmin uşaqda anafilaktik şok yaşanıb:** "Buna da anesteziya məqsədilə istifadə edilən dərman vasitələri səbəb olub. Amma materiallar tam araşdırılmamış dəqiq nə isə demək olmur. Hər bir uşaq ölümü istənilən halda faciədir. Hazırda xəstəxanadan uşağa məxsus sənədlərin göndərilməsini istəmişik. Xəstəliyin diaqnozu, hadisənin gedişi, başvermə tarixinin qeyd edildiyi materiallar komissiyaya daxil olduqdan sonra iclas keçiriləcək. Hazırda komissiyamız tərəfindən araşdırma aparılır. Sənədlər gətirilsin, iclas keçiriləcək və gerçək səbəblər bilinəcək".

**Müstəqil həkimlər isə deyir ki, anafilaktik şokun olmaması üçün uşağa həmin narkoz verilməzdən əvvəl yoxlama inyeksiyası ("prob") edilə bilərdi:** "Xüsusən antibiotiklərin parenteral istifadəsi zamanı bu prosedura ehtiyac var. Anafilaktik şok allergiyanın ən güclü forması, orqanizmin yad cismə ən güclü reaksiyasıdır və adətən xəstəxana şəraitində də belə xəstəni xilas eləmək mümkün olmur. Buna "iynənin ucunda ölüm" də deyirlər".

**Açıqlama verən mərhumun atası Qoşqar Mehralıyev hadisənin təfərrüatını danışıb. O, həkimdən şikayət edəcəyini də bildirib:** "Oğlum Seymur evimizin pilləkənindən yıxıldı, qolu sındı. Əvvəlcə sınıqçıya apardıq. Sınıqçı da qolunu bağladı. Yara sağaldı, amma gördük ki, qolu əyri bitib. Apardıq rentgenə, sümüklərin əyriliyi təsdiqləndi. Sonra uşağı götürüb, getdim Ağdaşa. İdris həkim dedi ki, əməliyyat olunmalıdır. Əməliyyatı 650 manata danışdıq. Həkimə dedim ki, problem olmaz? Dedi ki, məni bütün Azərbaycan tanıyır. Əməliyyatın heç bir riskinin olmadığını dedi. 10 manat da analizə pul verdim. Bütün iynə-dərmanı da aldırdı. Sonra da narkoz vurub, balamı öldürdü. Uşağın 3 mərasimi başa çatandan sonra həkimdən şikayət edəcəm".

❑ E.HÜSEYNOV

# "Sevil massivi"nin vəzifəli şəxslərinə hökm oxundu - məntiqi sonluq

## Qalmaqallı məhkəmələrdən biri başa çatdı

**Azərbaycandakı ən qalmaqallı məhkəmələrdən biri başa çatıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda və mənimsəmədə təqsirləndirilən "Sevil massivi" MMC-nin təsisçisi Aynur Zeynalov və digərlərinin cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**




Hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hökmə əsasən Aynur Zeynalov 9 il, Zabit Çələbiyev və Elmin İsmayılovun hər biri 8 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Məhkəmə digər təqsirləndirilənlər Mirdamat Muradıyevin və Səbinə Əliyevanın barəsində 3 il sınaq müddəti olmaqla şərti cəza təyin edib. Onlar məhkəmə zalından azadlığa buraxılıblar.

Qeyd edək ki, ötən prosesdə dövlət ittihamçısı çıxış edərək Aynur Zeynalovun 15 il, Zabit Çələbiyevin 13 il, Elçin İsmayılovun 13 il, Mirnamat Miradıyevin 10 il, Səbinə Əliyevanın 7 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

İttihama görə, MMC-nin təsisçisi Aynur Zeynalov həmin kooperativin direktoru Elçin İsmayılov və digərləri ilə qabaqcadan əlbir olub 2013-2014-cü illərdə 172 min 507 manat məbləğində sadələşdirilmiş vergini dövlət büdcəsinə ödəməkdən yayınmaqda, xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq alınmadan qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq 99 min 597 manat məbləğində gəlir əldə etməkdə təqdirləndirilir. Onlar Cinayət Məcəlləsinin 192.2.2 (qanunsuz sahibkarlıq) və 213.2.2-ci (vergi ödəməkdən yayınma) maddələri ilə ittiham olunur.

Həbs edilənlərdən biri - Abşeron Rayon Hökməli bələdiyyəsinin sabiq sədri Mirdamat Miradiyev bələdiyyə ərazisində yerləşən torpaq sahələrini A.Zeynalov və E.İsmayılovun bilavasitə şərait yaratmaları ilə müxtəlif şəxslərə sataraq ümumilikdə sonunculardan 170 min manat məbləğində rüşvət almaqda təqsirli bilinir.

Ona qarşı Cinayət Məcəlləsinin 311.3.3-cü (rüşvət alma) maddəsi ilə ittiham elan edilib. Amma ağır xəstəliyi ilə əlaqədar barəsində həbslə bağlı olmayan qətimkan tədbiri seçilib.

İstintaqla həmçinin müəyyən edilib ki, "Sevil massivi" MTK-nın məsul şəxsləri bələdiyyə sədri M.Miradıyevlə əldə etdikləri şifahi razılaşmaya əsasən bələdiyyənin mülkiyyətində olan 30 hektar perspektiv inkişaf torpaqlarını, eləcə də ayrı-ayrı şəxslərin mülkiyyətində olan "At yalı" və "Sonalı sahəsi" adlandırılan 110 hektar örüş torpaqlarını qanunsuz olaraq zəbt edərək həmin torpaqların vətəndaşlara faizsiz kreditlə satışını həyata keçiriblər.

Vətəndaşlar tərəfindən isə həmin torpaq sahələrində layihə-smeta sənədləri olmadan, dövlət qeydiyyatına alınmadan 200 fərdi yaşayış evinin tikintisi həyata keçirilib. Kredit ödənişləri başa çatdıqdan sonra bələdiyyəyə məxsus olmayan sahələr bələdiyyə tərəfindən hərraca çıxarılmaqla satılaraq vətəndaşların adlarına rəsmiləşdirilib.

Bildirək ki, "Sevil massivi" MTK tərəfindən qeyd olunan ərazidə təyinatına uyğun olmadan orada 100-dən artıq çoxmənzilli yaşayış binalarının tikintisi nəzərdə tutulub.

Rəsmi ittihamda həmçinin bildirilir ki, müvafiq dövlət qurumları ilə razılaşdırılmadan, o cümlədən qanunsuz olaraq aparılan tikinti işlərinin dayandırılması barədə Fövqəladə Hallar Nazirliyinin rəsmi xəbərdarlığına məhəl qoyulmayıb.

Bu iş üzrə zərərçəkmiş şəxslərin sayı yüzlərlədir. Onlar arasında torpaq sahəsinə pul ödəyənlər, ev tikdirmək üçün MMC-yə ödəniş edənlər var. Zərərçəkmişlər məhkəmədə deyiblər ki, tikinti işləri dayandırıldıqdan, MMC rəhbərliyi həbs edildikdən sonra pullarını ala bilməyiblər və zərərçəkmiş kimi tanınıblar.

❑ İ.MURADOV

YENİ MÜSAVAT
N 145 (6759) 12 iyul 2017

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Dünən Brüsseldə Azərbaycan və Ermənistan xarici işlər nazirləri - Elmar Məmmədyarov və Edvard Nalbəndyan arasında görüş planlaşdırılırdı. Qeyd edək ki, bu görüş danışıqlar prosesində üzücü durğunluğun davam eləməsi və konflikt sonasında artan eskalasiya faktları fonunda az önəm kəsb etmirdi. Yəni münaqişə ətrafında situasiyanın daha çox hansı məcrada inkişaf tapacağına aydınlıq gətirmək baxımından önəm daşıyırdı. Qarabağ ətrafında isə hər an partlayış həddinə çatacaq təhlükəli vəziyyət davam edir.**






# Krımdan Qarabağa uzanan yol: sanksiya sırası Ermənistana da çatacaq

## ABŞ dövlət katibinin işğalla bağlı açıqlamasını Azərbaycan üçün diplomatik kapitala necə çevirməli?; Amerika Ermənistanı da işğalçı kimi tanıya bilər, əgər...; **politoloq:** "Prezidentin görüşləri Qarabağ məsələsinə təsir edəcək..."

**Bu sözləri politoloq Arzu Nağıyev prezident İlham Əliyevin Türkiyə səfərini şərh edərkən deyib. Politoloq bildirib ki, bu səfərdə əsas məqamlardan biri Azərbaycan prezidentinin türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan və ABŞ dövlət katibi Reks Tillersonla görüşüdür:** "Prezidentin keçirdiyi görüşlərdə əsas məsələ tərəfdaş ölkələrlə birgə icra etdiyimiz layihələrin bir çox ölkənin enerji təhlükəsizliyini təmin etməsi ilə bağlı çıxışları oldu. Bu gün enerji təhlükəsizliyi deyəndə Azərbaycanın icra etdiyi layihələr yada düşür. Bu layihələrin içərisində Bakı-Tiflis-Ceyhan neft kəməri, Bakı-Tiflis-Ərzurum qaz kəməri və TANAP layihəsini xüsusilə qeyd etmək lazımdır. Prezidentin 22-ci Dünya Neft Konqresində iştirakı son hadisələri bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırmaq üçün yaranan fürsət idi".

**Politoloqun sözlərinə görə, konqresdə dünya ölkələrinin rəsmilərinin iştirakı Alxanlı olaylarına görə əsaslı addımların atılmasına təkan edəcək.** "Nəzərə almaq lazımdır ki, bu konqresdə 100-dən çox ölkədən 50 nazir, 5 mindən çox dövlət nümayəndəsi və şirkət rəhbəri iştirak edirdi. Bu məlumatlandırma və müzakirələr mühüm qərarların qəbul edilməsində və adekvat addımların atılmasında mühüm rol oynayacaq", - deyə ekspert qeyd edib.

***

Xəbər verdiyimiz kimi, bu arada Azərbaycan prezidenti İlham Əliyev İstanbulda 22-ci Dünya Neft Konqresi çərçivəsində keçirdiyi görüşlərdə əsas problemimiz olan Dağlıq Qarabağ məsələsini də diqqət mərkəzinə gətirib. O sırada Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, ABŞ-ın dövlət katibi Reks Tillersonla görüşlərdə enerji, ikitərəfli əlaqələrin digər aspektləri ilə yanaşı, Dağlıq Qarabağ mövzusu da müzakirə olunub.

Ölkə başçısı R.Tillersonla təmas zamanı konfliktin həlli ilə bağlı Azərbaycanın mövqeyini ABŞ-ın xarici siyasət idarəsi başçısının diqqətinə çatdırıb, işğalçı Ermənistanın təmas xəttində son hərbi təxribatı haqqında da ona məlumat verib.

İstanbul tədbirindən az öncə - G 20 zirvəsindən dərhal sonra isə R.Tillerson Qarabağ məsələsinə də dəxli olan bir açıqlama vermişdi. ABŞ dövlət katibi demişdi ki, Ukrayna böhranı həll edilənə qədər ABŞ və Avropa Birliyinin Rusiyaya tətbiq etdiyi sanksiyalar qüvvədə qalacaq. Bu haqda o, Kiyevdə prezident Pyotr Poroşenko ilə keçirdiyi görüşdə bəyan eləmişdi. Tillersonun sözlərinə görə, münaqişəyə səbəb olan davranışlar bitənə kimi sanksiyalar ləğv edilməyəcək.

Əlbəttə, ədalətli olardı ki, cənab Tillerson Azərbaycan prezidenti İlham Əliyevlə görüşdə də Poroşenko ilə görüş zamanı sərgilədiyi qətiyyəti başqa bir işğalçı ölkəyə - Ermənistan münasibətdə də sərgiləyəydi. Çünki əgər Rusiya Ukraynanın bir hissəsini işğal edibsə, Ermənistan da Azərbaycanın 20%-pik ərazisini on illərdir işğal altında saxlayır.

Doğrudur, hazırda Ukrayna məsələsi ABŞ-dan ötrü daha prioritetdir, lakin söhbət maraqlarla yanaşı, həm də prinsiplərdən gedir. Bu prinsiplər isə oxşar məsələlərə münasibətdə kəskin fərqlənə bilməz. Ayrı sözlə, ABŞ bir halda işğalçı dövlətə qarşı sərt davranıb ona sanksiya tətbiq elədiyi halda, başqa halda işğalçını görməzlikdən gələ bilməz. Əks halda, bu, "ikili standart" yanaşması olar.

Ermənistan isə Rusiyadan heç də geri qalan işğalçı deyil. Ümid edək ki, ABŞ-ın yeni administrasiyası əvvəlki hökumətlərin bu yanlışını düzəldəcək və Dağlıq Qarabağ məsələsinə də Krım məsələsi kimi ədalətli yanaşacaq. Deyilə bilər ki, xristian amili, ABŞ-ın erməni lobbisinin güclü olması və Konqresə təsir imkanları buna mane olur. Ancaq biz yaxın tarixdən başqa fakt da bilirik: bu da odur ki, ABŞ ötən əsrin 90-cı illərində Bosniya müsəlmanlarını müdafiə eləmək üçün Serbiyanı bombalamışdı. Yəni o zaman dini amil heç bir rol oynamamışdı.

Deməli, Ağ Ev istəsə, Qarabağ məsələsində də ədalətli mövqe tutub Ermənistana qarşı sərt tövr sərgiləyər. Axı sanksiyalara tuş gəlmək üçün Ermənistan işğalçı olaraq, bütün parametrlərə cavab verir. Üstəlik, o, Qərbin, ABŞ-ın 3 ildir Krıma görə sanksiyalar tətbiq elədiyi başqa bir işğalçı dövlətin - Rusiyanın bölgədə əsas müttəfiqidir, Qarabağın işğal ortağıdır.

***

Bu arada NATO baş katibi Yens Stoltenberq Tillersonun Krım bəyanatına bənzər açıqlama ilə çıxış edib. Alyans rəhbəri bildirib ki, NATO Ukraynanı dəstəkləyir və heç vaxt Krımın Rusiya tərəfindən zəbtini tanımayacaq. Bu barədə o, prezidenti Pyotr Poroşenkonun iştirakı ilə keçirilən Ukrayna-NATO Komissiyasının iclasının açılışı zamanı deyib.

"Ukrayna tək tərəfdaş ölkədir ki, Əfqanıstan və Kosovo da daxil olmaqla, NATO-nun bütün missiyaları və əməliyyatlarında iştirak edir. Biz NATO-nun Ukrayna ilə həmrəyliyini nümayiş etdirmək üçün Ukraynanın müstəqilliyi və ərazi bütövlüyünə möhkəm dəstəyimizi ifadə edirik", - deyə NATO baş katibi bildirib. Onun sözlərinə görə, Rusiya Ukraynaya qarşı öz təcavüzkar hərəkətlərinə davam etdiyi müddətdə NATO Kiyevi dəstəkləyəcək.

***

Qərbin yüksək çinli rəsmilərinin bu qəbildən bəyanat-açıqlamaları sözsüz ki, Azərbaycanın da maraqlarına cavab verir. Qalır belə açıqlamaları Azərbaycan üçün diplomatik kapitala çevirmək. Bundan ötrü isə təbii ki, tək Azərbaycanın hərbi qüdrətinin artmasına diqqət yönəltmək kifayət deyil.

Sözsüz ki, ən birinci hədəf hərbi gücümüzü artırmaqdır. Lakin Qərbin, ABŞ-ın, NATO-nun rəğbətini qazanmaq və Qarabağ məsələsində sözümüzü daha kəsərli eləmək üçün başqa sahələrdə də güclənməliyik. O sırada Azərbaycanın beynəlxalq imicinin yaxşılaşdırılması, ölkəmizin Qərb üçün daha arzuedilən məmləkətə çevrilməsi (həm energetik, həm də dəyərlər anlamında) vazkeçilməz imperativlər kimi gündəmə gəlir.

Bunlar olacaqsa, o zaman əminliklə deyə biləcəyik ki, Krımdan Qarabağa uzanan bir yol var və bu yol tezliklə və mütləq işğalçı Ermənistana qarşı da sanksiyaların tətbiqinə gətirəcək. Çünki Qarabağın işğalı artıq Krım qədər ABŞ-ı qayğılandıran məsələyə çevriləcək.

***

"ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən 4 və 7 iyulda yayılan bəyanatlarda Ermənistanın işğalçı adlandırılmasının ardınca Azərbaycan prezidentinin bölgədə nüfuzu və maraqları olan dünya liderləri ilə bir masa arxasında müzakirə aparması, baş verən proseslərə həm siyasi, həm iqtisadi, həm də hərbi tərəfdən qiymət verməsi çox önəmli məsələdir və təqdirəlayiq haldır".

## Fransada yaşayan azərbaycanlılar Alxanlı faciəsi ilə bağlı beynəlxalq təşkilatlara müraciət edib



**Fransanın Nant şəhərində yaşayan azərbaycanlılar Ermənistan ordusunun Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndində törətdiyi növbəti təxribatla bağlı beynəlxalq təşkilatlara müraciət edib. Bu barədə "Trend"ə Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.**

Nant şəhərində yerləşən Türk Mədəniyyət Mərkəzində erməni təxribatına etiraz əlaməti olaraq keçirilən toplantıda Ermənistan silahlı qüvvələrinin Alxanlı kəndinə hücumu nəticəsində mülki şəxslərin həlak olmasının Fransada yaşayan azərbaycanlıların narahatlığına səbəb olduğu vurğulanıb. Bildirilib ki, bu hadisə işğalçı Ermənistanın beynəlxalq hüququ, insan haqlarını kobud şəkildə pozmasını bir daha nümayiş etdirir.

Tədbirin sonunda baş vermiş hadisə ilə əlaqədar Fransada yaşayan azərbaycanlılar adından müraciət qəbul edilib. Müraciət BMT, ATƏT, AŞ PA, Avropa İnsan Haqları Məhkəməsinə, ATƏT- in Minsk Qrupunun həmsədrlərinə və Avropa Parlamentinə göndərilib. Müraciətdə işğalçı Ermənistana qarşı sanksiyaların tətbiq olunması tələb edilib.

Xatırladaq ki, iyulun 4-də axşam saatlarında erməni silahlı birləşmələri Füzuli rayonunun Alxanlı kəndini minaatanlardan atəşə tutub. Təxribat nəticəsində Alxanlı kənd sakinləri - 1966-cı il təvəllüdlü Quliyeva Sahibə İdris qızı və onun nəvəsi 2016-cı il təvəllüdlü Quliyeva Zəhra Elnur qızı həlak olub, 1965-ci il təvəllüdlü Quliyeva Sərvinaz İltifat qızı isə ağır yaralanıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 145 (6759) 12 iyul 2017



# Alıcıların cibinə girən "yalançı" tərəzilər: problemdən çıxış yolu nədir?

## Eyyub Hüseynov: "Əhalinin qazancının 20 faizi aldatmalara qurban gedir..."

**Müasir texnologiyalar nə qədər həyatımızın müxtəlif sahələrinə ayaq açsa da, hələ də tərəzidə aldatma kimi klassik satıcı "tələsi"nə düşmək mümkündür. Səbəb isə odur ki, Azərbaycanın müxtəlif bölgələrində kütləvi bazarlarda qoyulan tərəzilər elektron olsa da, satıcılar tərəfindən müdaxiləyə məruz qalır.**

Bundan çıxış yolu kimi, alıcıların bir qismi özü ilə cib tərəzisi gəzdirir və aldığı malı yenidən çəkərək, nə qədər aldadıldığının fərqinə vara bilir. Təəssüflər olsun ki, hazırda bu məsələyə heç bir dövlət qurumu nəzarət etmir. Xüsusən də sahibkarlıq obyektlərində yoxlamaların qadağan edilməsindən sonra bazarlarda özbaşınalıq yaranıb. Əksər bazarlarda nəzarət tərəziləri də ləğv olunub. Xüsusən insanların daha çox axın etdiyi "8-ci kilometr" bazarı, "Yaşıl bazar" kimi yerlərdə çəkidə aldatma halları geniş yayılıb. Bəs bununla mübarizə necə aparılmalıdır? "Yeni Müsavat" bu suala cavab axtarıb.

**Əhalinin qazancının 20 faizinin aldatmalara qurban getdiyini deyən Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov çıxış yolunu dövlət qurumlarının fəaliyyətinin gücləndirilməsində görür:** "Azərbaycan yeganə ölkədir ki, insanlar hələ də bazara gedəndə ciblərində tərəzi gəzdirirlər. Belə çıxır ki, insanlar mal alanda tərəzi gəzdirməlidir, avtomobilinə yanacaq dolduranda hansısa ölçmə cihazı aparmalıdır. Bu anormal bir haldır. Ciblərdə gəzdirilən tərəzilər də metaldan olduğu üçün yay aylarında istidən genişlənir, qışda isə yığılır. Tərəzinin yayları boşalır. Ölkə üzrə ölçü cihazlarının düzgün işləməsini götürsək, əhali 20 faiz aldadılır. Yəni insanların qazancının 20 faizi ölçmə cihazlarındakı aldatmaya gedir. Mən hələ pulda aldadılmadan danışmıram. Nazirlər Kabinetinin 94 saylı qərarında qeyd olunur ki, bazarlarda satış yerlərində nəzarət tərəziləri olmalıdır. Ancaq əksər bazarlarda nəzarət tərəziləri qoyulmayıb. Satıcıların qoyduqları tərəzilərin əksəriyyəti də normal işləmir. Həmin tərəzilər vaxtaşırı qeydiyyatdan keçirilməli və yoxlanmalıdır ki, standartlara uyğun işləyir, ya yox. Lakin bu yoxlanış könüllüdür. Əgər sahibkarlar istəməsə, gedib həmin tərəzini qeydiyyatdan keçirmir. Ona görə də Azad İstehlakçılar Birliyi araşdırma aparıb ki, tərəzilərin altına yapışdırılan maqnitlər, üstünə qoyulan daşlar var. Azərbaycan



Eyyub Hüseynov

dünyanın çox az ölkələrindən biridir ki, çəki daşı əvəzinə adi daşlardan, dəmirlərdən istifadə olunur. Və ya daşın əvəzinə iri bir badımcan qoyurlar. Daha sonra həmin badımcan sıxılıb yüngülləşir və çəkidə aldadılma baş verir. Bu sahədə istehlakçılar aldadılır".

**Eyyub Hüseynov onu da diqqətə çatdırdı ki, problemi aradan qaldırmaq üçün hökumətin istehlakçı siyasəti olmalıdır:** "İstehlakçıların hüquqlarını qoruyan qanunlar qüvvəyə minməlidir. Bundan əlavə, dövlət orqanları fəal iş aparmalıdır. Dövlət orqanları 9 mərtəbəli binada yerləşir, 140 nəfər çalışanı var, şikayətçiyə isə cavab verirlər ki, gedin məhkəməyə müraciət edin. Dövlət orqanları istehlakçıların hüquqlarını fəal şəkildə qorumalıdır".

**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri Fazil Talıblı da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu məsələdə əsas nəzarətedici funksiyanı vətəndaşlar daşımalı və gördükləri neqativ hallarla bağlı konkret şikayətlər göndərməlidirlər:** "Bizə də çəkidə aldadılma, tərəzilərin düzgün işləməməsi ilə bağlı şikayətlər daxil olur. Şikayətçilər bəzən obyektin adını çəkmək istəmirlər, konkret ünvan göstərmirlər. Sadəcə, ümumi şəkildə aldadıldıqlarını izah edirlər və bunun nəzarətə götürülməsini xahiş edirlər. Təbii ki, "Azərbaycanda ölçmənin vəhdətinin təmin edilməsi" ilə bağlı qanun var və qanunun tələbinə əsasən ölmə vasitələri *(tərəzi də ölçmə vasitəsidir)* ildə iki dəfədən az olmayaraq xüsusi laboratoriyalarda yoxlanılıb sonra istismar edilməlidir. Lakin bəzən sahibkarlar bundan yayınırlar və bu, bizi çox təəssüfləndirir. Bildiyiniz kimi, Azərbaycanda sahibkarlıq sahəsində aparılan yoxlamalar iki il müddətinə dayandırılıb. Nəzarət funksiyasını həyata keçirən orqanlar heç bir sahibkarlıq müəssisələrində bu yoxlamaları həyata keçirmirlər. Sahibkarlar isə bundan sui-istifadə edirlər və qanunun tələblərini pozurlar. Buna görə də ictimai nəzarət güclü olmalıdır. İctimai nəzarətin güclü olduğu yerdə dövlət nəzarətinə bir o qədər də ehtiyac qalmır. İctimai nəzarətdə başlıca rolu istehlakçılar və onların konkret şikayətləri oynayır. Biz istəyirik ki, istehlakçılar üzləşdikləri bu cür faktlarla bağlı bizim 963 nömrəli qaynar xəttimizə müraciət etsinlər və ya komitəyə yazılı şəkildə şikayət göndərsinlər. Komitənin metroloji nəzarət şöbəsinin əməkdaşları bu məsələni araşdıracaq, həm istehlakçıya məlumat veriləcək, həm də ümumi vəziyyətə nəzarət artacaq".

**Bazarda bəzi tərəzilər elə qoyulub ki, vətəndaşların ona nəzarət etmək imkanı yoxdur. Bir çox bazarlarda isə nəzarət tərəziləri yoxdur. Bu duruma münasibət bildirən F.Talıblı qeyd etdi ki, bu qayda pozuntusu hesab olunur:** "Ötən illərlə müqayisədə bu məsələdə müsbətə doğru dəyişikliklər baş verib. Çünki ildən-ilə biz elektron tərəzilərin daha çox tətbiq edildiyini müşahidə edirik. Həmin elektron tərəzilərin ekranları istehlakçıya da məhsulun çəkisini görmək imkanı yaradır. Ancaq bu məsələlər hələ də gündəmdədir. Biz sahibkarların məsuliyyətini önə çəkməliyik və onlar bu məsələdə diqqətli olmalıdırlar. Hazırda yoxlamalar dayandırılıb. Ancaq iki il müddəti bu ilin sonunda bitəcək. Yeni ildən yeni qanunvericilik və tənzimləmə metodları ilə sahibkara müraciət olunduqda, artıq o İnzibati Xətalar Məcəlləsinin tələblərindən yayına bilməyəcək. Biz sahibkarlar qanunvericiliyə hörmət etməyə çağırırıq və istehlakçıları da nəzarəti gücləndirməyə dəvət edirik. Qarşılaşdıqları nöqsanları bizimlə açıq-aydın bölüşsünlər".

**❑ Nərgiz LİFTİYEVA**

# Azərbaycan istehsalı olan velosipedlər satışa çıxır

## Bu il üçün 30 min ədəd velosiped istehsalı nəzərdə tutulub...




**Uzun illərdir ki, Bakıda yerləşən brend mağazalarda müxtəlif ölkələrdə istehsal olunan velosipedlər satılır. Aralarında Çin istehsalı olan velosipedlərin qiyməti elə də ucuz deyil. Bəzilərinin isə qiyməti ilə keyfiyyəti bir-birinə uymur. Amma 2014-cü ildə İsmayıllıda bu modellərə rəqib olacaq velosipedlərin istehsalı üçün zavod tikilməyə başlandı.**

Zavod tikiləndən sonra onun fəaliyyətinin başlamadan bitdiyi deyilirdi. Amma heç də elə deyil. Zavod nəinki istehsala dayanıb, hətta artıq öz məhsullarını satışa çıxarmağa hazırlaşır. Belə ki, Bakıda yerləşən "Park Bulvar" AVM-də Azərbaycanın ilk milli velosiped brendi "İSMA BİKES"ın yeni modellərinin sərgisi keçirilir.

Sərgidə fərqli modellər nümayiş etdirilir. Velosipedlər müxtəlif formada, rəngdə və zövqdədir. Balaca uşaqlardan tutmuş böyüklərə qədər hər kəs burada özünə velosiped tapa bilər. Hazırda sərgi günləri olduğu üçün satış həyata keçirilmir. Amma velosiped almaq istəyənlər üçün sərfəli şərtlər var. Belə ki, istənilən şəxs burada bəyəndiyi velosipedi sifariş edib, iyulun 12-dən sonra zavod qiymətinə əldə edə bilər.

Buna baxmayaraq, bəzi maraqlı modellərin qiymətini öyrənə bildik. Maraqlı modellərdən biri "Discovery" adlanır. Qiyməti 362 manat olan velosiped həddən artıq mobil və daşımaq üçün rahatdır - onun demək olar ki, bütün detalları, hətta pedalları da qatlana bilir. Nəticədə o, avtomobilin yük yerinə, hətta iri çantaya da sığır. Velosiped həm də sürət ötürücüsü və disk tormozu ilə təmin edilib. "İsma bikes"in ən bahalı modeli "Elektro bike"dir. Bu velosiped həm adi modellər kimi ayaqla, həm də motorla hərəkətə gətirilir və qiyməti 3656 manatdır. Hələlik bu velosipedin istehsalına başlanmayıb, sadəcə, bir ədəd nümunə üçün təqdim edilir.

Zavodun rəsmi mağazası "Velotrek" ticarət mərkəzinin yaxınlığında olacaq. Artıq son tamamlanma işləri gedir. Burada əsasən servis xidməti fəaliyyət göstərəcək. Həmçinin velosipedlərin detalları satılacaq.

Velosipedlər haqqında "tam istehsal" demək bir az çətindir. Çünki velosipedin demək olar ki, bütün detalları xaricdən alınır və zavodda yığılır. Məsələn, velosipedin işlək hissələri, raması Yaponiyanın "Shimano" şirkətindən alınır. Təkərlər isə dünyaca məşhur Kenda şirkətinə məxsusdur. Təkərlər arasında Almaniya istehsalı olan da var. Detalların bəziləri Avropa ölkələrinin məhsuludur.

İsmayıllıda isə bu detallar bir araya toparlanır, velosipedlər yığılır, Almaniya istehsalı boya ilə boyanır və bazara çıxarılır. Burada təbii ki, zavodun gördüyü digər işlər də var. Məsələn, velosipedlərin ramaları xaricdən alınsa da, burada qaynaq və dizayn edilir. Digər sistemlər də burada quraşdırılır.

**"Synergy Group"un biznesin inkişafı departamentinin direktoru Pərviz İlyasov istehsal prosesi, satış və xidmətlə bağlı musavat.com-a ətraflı müsahibə verib. Şirkətin sözçüsü bildirib ki, zavod dünya təcrübəsindən faydalanır:** "Velosipedlərimizdə "Shimano" və digər şirkətlərin məhsulları təbii ki, olmalıdır. Bütün dünyada sistem belə işləyir. Velosiped istehsalçısı olan şirkətlər velosipedin detallarını bizim kimi ayrı-ayrı şirkətlərdən alırlar. Dünya qloballaşır və artıq heç kim bu detalları özü istehsal etmir. "Shimano" sürət sistemi dünyada birincidir və biz bunu istehsal edə bilmərik. Bu sistemi Almaniya da alır, ABŞ da alır, biz də alırıq. Dünyada istehsal sistemi necədirsə bizdə də elədir. Ramalar xaricdən gətirilir, burada qaynaq edilir, dizayn verilir. Velosipedlər burada yüksək keyfiyyətli boya ilə rənglənir. Bizim məhsulumuz gün altında nə qədər qalsa da rəngi solmur. Çin istehsalı olan velosipedlərin boyası bir müddət sonra qopur, tökülür. Bizdə bu ola bilməz. Zavodumuz təkcə yerli bazarı deyil, xarici bazara çıxmağı da nəzərdə tutur. Deməli, istehsal etdiyimiz velosipedlər yüksək səviyyədə olmalıdır".

**Pərviz İlyasov satış və qiymət məsələsinə də toxunub:** "Çalışacağıq ki, qiymətlər üzərində oynanılmasın. Servis mərkəzimiz 1 aya fəaliyyətə başlayacaq və burada həm modellərin satışı, həm təmiri, həm də ehtiyat hissələrinin satışı həyata keçiriləcək. Biz məhsullarımıza 1 il zəmanət veririk və hər hansı bir problem olarsa, istifadəçilər servis mərkəzimizə yaxınlaşa bilərlər. Qiymətlər isə müxtəlifdir. Hazırkı modellərdə uşaqlar üçün nəzərdə tutulan velosipedlərin qiyməti 98-115 manat, yeniyetmələr üçün 115-280 manat arasında dəyişir. Bahalı olanlar peşəkar sistemlə təchiz edilib, yeniyetmələr üçün olsa da, böyüklər üçün nəzərdə tutulan sistemə malikdir. Böyüklər üçün isə qiymət aralığı 170-1000 manata qədərdir. Sırf yarış üçün nəzərdə tutulan velosipedlərin qiyməti isə 1100-2000 manat arasında dəyişir".

**Şirkət sözçüsü qeyd etdi ki, bu il üçün 30 min ədəd velosiped istehsalı nəzərdə tutulub:** "Yerli bazarla yanaşı, xarici ölkələrə də Azərbaycan brendi olaraq çıxmaq istəyirik. Bunun üçün çalışırıq. Artıq velosipedlərimizlə ABŞ-dan, Rusiyadan, Gürcüstandan maraqlananlar var. Çünki bizim məhsullar həm dizayn olaraq, həm də rəng olaraq fərqlənir. Biz artıq növbəti ilin rənglərini təqdim edirik. Həmçinin məhsullarımız parametrlərinə görə də daha sərfəli qiymətlərlə təqdim edilir. Burada təbii ki, keyfiyyət də önəmlidir. Bu səbəbdən artıq bizim məhsullarımız xarici ölkələrdə maraq oyadır.

Çindən gətirilən velosipedlər bizim rəqibimiz deyil. Avropa ölkələrindən, Türkiyədən gətirilən bəzi model velosipedlər bizim rəqibimiz ola bilər. Burada da biz daha üstün olacağıq. Çünki keyfiyyət daha yüksəkdir, qiymət də sərfəlidir. Çindən keyfiyyətsiz velosipedləri gətirirlər, camaatı aldadırlar. Bizim bazarda dəllallıqla məşğul olmaq fikrimiz yoxdur. Biz markamızı gözdən sala bilmərik və işimizi maksimum keyfiyyətli görürük".

**❑ Məhəmməd TÜRKMƏN**
**Foto müəllifindir**

**Paytaxt sakinlərinin və turistlərin ən çox üz tutduğu yerlərdən biri də Bakı Zooloji Parkıdır. Nərimanov rayonu ərazisində yerləşən zoopark paytaxt sakinləri üçün həm də əlverişli istirahət yeridir.**

# Bakı zooparkında bir yay günü - qiymətli heyvanlar istidə necə qorunur?

## Burada heyvanların saxlanma yeri səliqə-sahmanlı olsa da, bəzi heyvanların yeri çox dardır; **direktor:** "Leyla Əliyevanın təşəbbüsü ilə zooparkda abadlıq işləri aparılacaq..."

Burada 168 növə aid olan 1193 başdan çox heyvan, quş, sürünən və balıqlar daxildir, o cümlədən, 47 növə aid 193 baş məməli heyvan, 70 növə aid 400 baş quş, 11 növə aid 34 baş sürünən, 2 növə aid 4 baş suda-quruda yaşayan, 38 növə aid 562 balıq bu parkda saxlanılır. Bəs görəsən, bu cür qiymətli heyvanlar isti yay günlərində necə saxlanılır?

Musavat.com-un müxbiri heyvanların durumunu, saxlanma şəraitini öyrənmək üçün Bakı Zooloji Parkına baş çəkib, vəziyyətlə maraqlanıb.

Son günlər havaların kəskin isti keçməsi buradakı heyvanlara da təsirsiz ötüşməyib. Zooparkda heyvanların saxlanma yerləri səliqə-sahmanlı olsa da, bəzi heyvanların yeri çox dardır. Əsasən iri heyvanlardan ayı və şirin qəfəsi balacadır.

Onu da qeyd edək ki, ötən illə müqayisədə Bakı Zooloji Parkına yeni heyvanlar gətirilib. Bir çoxları isə hədiyyə edilib.

Zooparka giriş biletlərinin qiymətləri isə dəyişməz olaraq qalır: uşaqlar üçün 1 manat 50 qəpik, böyüklər üçün isə 2 manat nəzərdə tutulub. Günorta saatları olmasına baxmayaraq zooparka gələnlər az deyildi. Əsasən xarici turistlər, özəlliklə də ərəblər üstünlük təşkil edirdi. Zooparka gələn yerli vətəndaşlarla da həmsöhbət olduq.













**Saleh Həmidov adlı sakin heyvanların saxlanma şəraitindən narazılığını bildirdi:** "Bakı Zooloji Parkına illərdir ki, gəlirəm. Heyvanları da əzbər tanıyıram. Düzünü desəm, yeni heyvanlar gətirilir, dəyişikliklər var. Ancaq saxlanma şəraitindən narazıyam. Canavar, şir, bir də ayının qəfəsi çox balacadır. Axı bu heyvanlar azadlığı sevirlər. Otaq boyda yerdə yaşamaq onlar üçün necə də əzablıdır. Xahiş edirik, rəhbərlik bunu nəzərə alsın".

**Əcnəbi turistlər isə zooparkda heyvanların pis qoxusundan şikayətləndilər. Ərəb ailəsinə bələdçilik edən şəxs onların fikirlərini bizə belə çatdırdı:** "Qonaqlar deyir ki, zooparkdan pis qoxu gəlir. Əslində bu olmamalıdır. Bildirirlər ki, onlarda hər gün heyvanlar saxlanılan yerləri yuyurlar. İki ay əvvəl də burada olublar, lakin eyni vəziyyət hökm sürür. Hesab edirlər ki, burada heyvanlar maraqlı olsa da, zoopark standartlara cavab vermir".

**Musavat.com-a danışan zooparkın direktoru Azər Hüseynov isə bizə açıqlamasında yeni gətirilən heyvanlar haqqında məlumat verdi:** "Son aylar yeni gətirilən heyvanların sayı artıb. Ancaq cırtdan və maralları Çexiyadan hədiyyə ediblər. Daha sonra, dekorativ keçiləri mənim dostlarım hədiyyə ediblər. Artıq onlar burada adaptasiya prosesi keçiblər, rahat yaşayırlar. Yeni leopard balasını da bizə hədiyyə ediblər. Dişi fərddir, erkək fərdi də var. Zooparkda daha çox quşlara rast gəlinir. Qu quşları, yapon durnası, qızıl qazlarımız var. Bu yaxınlarda neftə bulaşmış qızıl qaz verdilər. Onu birtəhər təmizləyib qəfəsə saldıq. Qafqaz nəcib maralından ötən il üç baş, bu il də yenidən üç baş bala almışıq. Həmin marallar qırmızı kitaba düşmüş heyvanlardır. Tək olan heyvanlarımızdan lamanın dişisi bu yaxınlarda Daşkənd zooparkından gətiriləcək. Bununla yanaşı, yallı qoyunun dişisi, Dağıstan turunun isə erkəyi zooloji parka gətiriləcək. Hesab edirəm ki, bu işlər görüləndən sonra zooparkımız öz simasını alacaq və gələn qonaqlar bundan məmnun olacaq".

**A. Hüseynov Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın dəstəyi ilə Bakı Zooloji Parkında abadlıq və genişləndirmə işlərini aparılacağını bildirdi:** "Leyla xanım Əliyevanın təşəbbüsü ilə zooloji parkda abadlıq işləri aparılacaq. Buradakı heyvanların yaşayış şəraitinin yaxşılaşdırılması məsələsi ən öndə duran məsələ kimi qoyulub. Yeni heyvanların gətirilməsi yox, ərazilərinin genişləndirilməsi nəzərdə tutulub. Bildiyiniz kimi, zooparkın istifadə olunmamış 2 hektar ərazisi var. Həmin ərazidə təmir-quruculuq işləri aparılacaq, heyvanların yeri 3-4 dəfə böyüyəcək".

Qeyd edək ki, həyata keçiriləcək təmir-quruculuq tədbirləri çərçivəsində Zooloji Parkın ərazisinin genişləndirilməsi, ziyarətçilər üçün daha rahat məkana çevrilməsi, heyvanların saxlanma şəraitinin yaxşılaşdırılması və ərazidə müxtəlif əyləncə obyektlərinin istismara verilməsi nəzərdə tutulub. Yenidənqurma işləri nəticəsində zooparkın ərazisi iki dəfə genişləndiriləcək. Heyvanların öz arealına daha yaxın şəraitdə yaşamalarını təmin etmək, həm də sakinlərin və şəhərimizin qonaqlarının rahat və zövqoxşayan ziyarətlərini təşkil etmək məqsədilə zooparkda daha təbii mühit yaradılacaq, müasir dizayn olunacaq. Zoopark fiziki qüsurlu şəxslərin, həmçinin bütün yaş qruplarından olan ziyarətçilərin rahatlıqla istirahət edəcəyi və maarifləndirici məkan olacaq.

Zoopark cəmiyyətin bütün hədəf qrupları üçün heyvanlar və təbii ekosistem, xüsusən Azərbaycanın nadir təbiəti haqda məlumat əldə edə biləcəkləri tədris, tədqiqat və konservasiya mərkəzinə çevriləcək. Zooparkın fəaliyyətində uşaqların və gənclərin təbiət və onun mühafizəsi haqqında biliklərinin artırılmasına yönələn proqramların həyata keçirilməsinə xüsusi önəm veriləcək. Zooparkın daxilində azyaşlı uşaqlar üçün ev heyvanlarından ibarət sevimli guşə (pet farm) və kəpənəklər evi də fəaliyyət göstərəcək. Yaralı və xəstə heyvanlar üçün xüsusi karantin zonası və reabilitasiya mərkəzinin də tikilməsi nəzərdə tutulur. Eyni zamanda Zooloji Parkın fəaliyyətinin səmərəliliyinin artırılması və ictimaiyyətlə əlaqələrin təkmilləşdirilməsi məqsədilə yeni internet səhifəsi yaradılacaq".

❑ **Məğrur MƏRD**



# Bakıda film kimi cinayət - polis barmaq izlərindən tanıdı

**Paytaxtın 20 Yanvar küçəsindəki mənzillərdən birindən oğurluq edilməsi barədə DİN-in "102 Zəng Mərkəzi"nə müraciət daxil olub. Ev sahibəsi mənzilindən pul və qızıl-zinət əşyalarının oğurlandığını bildirib. Bu barədə musavat.com-a DİN mətbuat xidmətindən məlumat verilib.**

Məlumatla əlaqədar ərazi aidiyyəti üzrə Nəsimi Rayon Polis İdarəsinin 19-cu polis bölməsinin əməkdaşlarından və kriminalistlərdən ibarət əməliyyat qrupu hadisə yerində olub müvafiq araşdırmalar aparıblar. Kriminalistlər mənzili müayinə edib, əl-barmaq izləri götürülüb, digər əməliyyat tədbirləri həyata keçirilib.

Hadisə yerindən götürülmüş izlərin müvafiq qaydada ekspertizası əvvəllər məhkum olunmuş Hüseyn Quliyevin əl-barmaq izləri ilə eyniyyət təşkil etməsi barədə rəy verib. Əməliyyat-axtarış tədbirləri ilə Abşeron rayon sakini, əvvəllər məhkum olunmuş Hüseyn Quliyevin yeri müəyyənləşdirilib. O, iyulun 6-da şübhəli şəxs qismində saxlanılaraq 19-cu polis bölməsinə gətirilib.

Ətrafında aparılan tədbirlər və əsaslı dəlilər qarşısında o, törətdiyi əməli etiraf edib. Bildirib ki, həmin mənzilə pəncərədən girmək yolu ilə daxil olaraq oradan 450 manat, 3100 ABŞ dolları və qızıl əşyaları oğurlayıb.

Faktla əlaqədar cinayət işi başlanılıb. İstintaq-əməliyyat tədbirləri davam etdirilir.

YENİ MÜSAVAT
N 145 (6759) 12 iyul 2017

# Həkìm və dìetoloqdan xəbərdarlıq: “İstì havalarda ət yeməklərìndən qaçın!..”

## Ekspertlərə görə, yay mövsümünün gəlişi ilə qidalanma rasionuna düzəliş edilməlidir

**Yay fəslində ət və ət məhsullarına tələbatın azalması hər kəsə məlumdur. Hətta bu səbəbdən ətin qiymətinin ucuzlaşması da heç kimə sirr deyil. Cəmiyyətdə belə bir fikir də formalaşıb ki, yay günlərində ət yeməklərinə üstünlük vermək insan səhhəti üçün ziyanlıdır.**

Bəs görəsən, bu fikirdə nə dərəcədə həqiqət var?

Mövzu ilə bağlı “Yeni Müsavat”a danışan **Milli Kulinariya Mərkəzinin direktoru Tahir Əmiraslanov** bildirdi ki, ət yemək daha çox insanın məcazından asılıdır: “Ümumiyyətlə, yay vaxtı ət yeməklərinin həcmi qida rasionumuzda azalır, çünki digər tərəvəzlər yetişir və onlara üstünlük veririk. Yay vaxtı həm də heyvanların, quşların balalarının böyüyən vaxtıdır. Sanki təbiət özü bunu tənzimləyir və qoymur ki, biz ət yeyək. Çünki digər bitkilər yetişir və biz yalnız bayram günlərində ət yeməklərinə üstünlük veririk. Yayda günorta saatlarında isti havada ət yemək, xəmir xörəkləri yemək, araq içmək doğru deyil. Bunlar ağır nəticələrə gətirib çıxara bilər”.

**Baş kulinarın sözlərinə görə, günorta saatlarında daha çox meyvə-tərəvəz və pəhriz yeməkləri yemək, səhər və axşam isə normal qidalanmaq olar:** “Bəzi yüngül ət məhsullarından istifadə etmək olar. Xüsusilə də balıqdan istifadə etmək olar. Yay fəslində balıq daha rahat həzm olunur, nəinki ət. Ümumiyyətlə, yayın istisində xəmir xörəklərini də azaltmaq lazımdır. Çünki çoxlu enerji verir və bağırsaqlarda uzun müddət qalır. Ətin bağırsaqlarda həzm olunma prosesi 4-6 saatdır. Xəmir xörəkləri də bir o qədərdir. Bitki mənşəli məhsullar isə 1-2 saat ərzində mədədə həzm olunub bağırsaqlara keçir, insan artıq yük daşımaq məcburiyyətində qalmır”.

**T.Əmiraslanov qeyd etdi ki, ətdən alınan zülalı balıqla əvəz etmək daha yaxşı olar:** “Yumurtanı isə bərk bişirmək lazım deyil, onu bir qədər alaçiy yemək daha yaxşı olar. Ətdən aldığımız zülalı digər bitkilərdən də əldə edə bilərik.



Çünki hava çox istidir. İnsanlar daha çox radiasiyadan təmizləyici məhsullara üstünlük verməlidirlər. Bundan başqa, bədən ağırlıq daşımamalıdır. Günəşə qarşı mübarizədə bədən çox əziyyət çəkir. İbn Sinanın pəhrizidir ki, səhər və axşam sərin havada yemək daha yaxşıdır. Nahar vaxtı isə müəyyən qədər meyvə ilə keçinmək daha gözəl olar”.

**Doktor Seyfəddin Əsəd də yay aylarında ət yeməklərindən imtina etməyi məsləhət gördü:** “Mən 23 ildir ki, qırmızı ətdən imtina etmişəm və faydasını da görürəm. Yay aylarında ət yeməyin yaratdığı ziyan odur ki, insanlarda aşırı dərəcədə köklük və piylənmə yaradır. Ət yeyən insanlar gərək gün ərzində çox hərəkətdə olsunlar. Oturaq həyat tərzi sürən insanların ət yeməklərinə üstünlük verməsi piylənməyə meyllilik yaradır. Ət yemək zəhərlənməyə şərait yaradır, qəbizliyi artırır, şəkər xəstəliyinə meyllilik yaradır, əsəb sistemini pozur. Ət yeyən adamlar davakar olurlar. Ətin həzmi uzun müddət tələb edir. Ət yeməyi o baxımdan hər zaman ziyanlıdır. Yayda isə ikiqat ziyanlıdır, insanlarda tərləməyə meyllilik yaradır. Onun həzmi üçün çox enerji sərf olunur. Əgər insanın tələbatı varsa, daha çox ağ ətə üstünlük verilməlidir. Balıq əti və çolpa əti yemək daha məqsədəuyğundur”.

❑ Nərgiz LİFTİYEVA




## “Hacı Cavad” məscidini sökən məmur kabinetində öldü

**Xəbər verildiyi kimi, bu il aprelin əvvəlindən sökülməyi barədə məsələ gündəmə gəlmiş, Yasamal rayonu Abdulla Şaiq küçəsi, 79 ünvanında yerləşən “Hacı Cavad” məscidi iyunun 30-dan iyulun 1-nə keçən gecə sökülüb.**

İlk günlər ibadətgahın sökülməsinə edilən cəhdlər məscid icması tərəfindən kəskin etirazla qarşılanmışdı. O zaman prezident İlham Əliyev “Hacı Cavad” məscidi ilə bağlı problemin ciddi araşdırılmasına göstəriş vermişdi. Nəhayət, iyun ayında məscidin sökülüb, həmin rayonun ərazisində yeni ünvanda, Abbas Mirzə Şərifzadə küçəsində təməlinin qoyulmasına qərar verildi.

Bir çox dairələr əvvəlcədən möminlərlə məsləhətləşmədən məscidin sökülməsinə edilən cəhdlərin ölkədə İslam Həmrəyliyi ili elan edildiyi, İslam Həmrəyliyi oyunları keçiriləcəyi bir ərəfədə dövlət-din qarşıdurması yaratmaq istəyən xarici və daxili qüvvələrin təhriki ilə edildiyini hesab edirdi. Hətta Yasamal Rayon İcra Hakimiyyəti başçısı İbrahim Mehdiyevin bugünlərdə vəzifəsindən azad edilməsini də bu amillə əlaqələndirənlər də var.

"İmam Hüseyn" məscidinin axundu Hacı Əbdülün moderator.az-a verdiyi məlumata görə, “Hacı Cavad” məscidinin sökülməsindən cəmi bir neçə gün sonra aprelin əvvəlindən bəri bu prosesdə fəal iştirak etmiş, Yasamal RİH başçısı İbrahim Mehdiyevin yaxın adamlarından biri, məscidin yerləşdiyi ərazi üzrə 43 saylı Mənzil İstismar İdarəsinin rəisi Yusif Əhmədov səhər saatlarında iş otağında gözlənilmədən vəfat edib.

# Paytaxt Bakı ağcaqanadlara təslìm olub - təhlükə

## Pediatra görə, xüsusilə uşaqları qorumaq lazımdır...

**Yay vaxtı həşəratların sayının artması təbiətin qaçılmaz cəzalarından biridir. İnsanları ən çox narahat edən isə heç şübhəsiz ağcaqanadlardır. Bu həşəratlar insan qanını sormaqla qidalanır və bu yolla yumurta qoyurlar. Onu da qeyd edək ki, ağcaqanadların yumurtalarına qarşı vaxtında dezinfeksiya işləri aparılmadıqda onların sayı da kəskin artır və yaşayış yerləri üçün əsl probleme çevrilir.**

Son zamanlar əhali arasında gedən müzakirələr isə onu göstərir ki, ağcaqanadların sayı artıb. Sovet dövründə aidiyyəti dövlət qurumları tərəfindən yaşayış məntəqələri yaxınlığında, binaların zirzəmisində, həyətində, bataqlıq və rütubətli yerlərdə ağcaqanadlara qarşı dezinfeksiya işləri aparılsa da, son illər bu tədbirlər azalıb. Bu baxımdan, həşəratların da sayı artıb.

Məlum olduğu kimi, ağcaqanadlara ən çox durğun su mənbələrində, bataqlıqda, qamışlıqda, rütubətli zirzəmilərdə rast gəlinir. Əvvəllər bu kimi ərazilər xlorlu su ilə dezinfeksiya olunduğundan, yay aylarında ağcaqanad bu qədər çox müşahidə olunmurdu. İndi isə bu həşəratların sayı hiss olunacaq dərəcədə artıb.

**Məsələ ilə bağlı Yeni Müsavat"a açıqlama verən Səhiyyə Nazirliyinin baş epidemioloqu İbadulla Ağayev isə bildirir ki, analoji tədbirlər indi də həyata keçirilir, lakin bunun üçün MİS-lərin və ya bələdiyyələrin Dezinfeksiya İdarəsinə müraciət etməsi, eləcə də ödəniş etməsi vacib şərtdir:** “İstər sovet vaxtında, istərsə də indi Səhiyyə Nazirliyi əhaliyə xəbər vermədən bu işləri aparır. Biz həyata keçirdiyimiz bütün tədbirlər haqqında əhaliyə xəbər verməli deyilik ki, hansı gün hansı ünvanda profilaktik tədbir aparmışıq. Çünki bu bizim borcumuzdur. Həmin profilaktik tədbirlər indi də aparılır. Ağcaqanadların çoxalmasını həmin sahə üzrə məşğul olan mütəxəssisdən başqa heç kim bilə bilməz. Əgər insanlar öz yaşadıqları ərazidə ağcaqanadların artdığını müşahidə edirlərsə, bu barədə aidiyyəti qurumlara müraciət etməlidirlər ki, müvafiq tədbir görülsün. Bu tədbirlər görülmədikcə onlar narahat ola bilərlər. Ağcaqanad hər zaman olub. Əhalinin özü də buna şərait yaradır. İnsanların özlərinin arasında profilaktik işlər aparılmalıdır, onlar təmizliyə riayət etmirlər. Binalarda eyvanlardan saysız-hesabsız zibillər atılır. Hamısı da əraziyə tökülür və həşəratlar üçün zəmin yaranır. Hər rayonun dezinfeksiya stansiyası var və təsərrüfat hesablıdır. Mənzil-istismar sahələri həmin idarə ilə müqavilə bağlayır, pul ödəyir və ondan sonra həmin qurum gəlib zirzəmilərdə,



binaların həyətində dezinfeksiya işləri aparır. Bu xidmət sovet dövründə də pullu idi, indi də pulludur. Hər bir rayonun təsərrüfat hesablı dezinfeksiya idarəsi var. Ərazidə bələdiyyə varsa, MİS varsa, müraciət etsin, onlar da məmnuniyyətlə işləri aparacaqlar”.

**İbadulla Ağayev onu da vurğuladıl ki, hər şeydən öncə insanlar özləri profilaktik işlər aparmalıdırlar, təmizliyə riayət etməlidirlər:** “Ağcaqanadların ölkəmizdə ən çox yaydığı xəstəlik malyariya idi, hazırda isə bu xəstəlik demək olar ki, yoxdur. Həm Bakıda, həm də rayonlarda səhiyyə qurumlarımız işləyir. Əgər kiməsə nə isə narahat edirsə, ciddi bir tədbir görmək lazım gəlirsə, müraciət etsin. Səhiyyə sistemi tam qaydasında işləyir. Sadəcə, müəyyən insanlar əhalidə xof yaratmaq istəyir. Mən 50-ci illərdən rayon yerində böyümüşəm, orada biz ağcaqanaddan qorunmaq üçün miçətkən qurub yaratdıq. O vaxt dezinfeksiya tədbirləri olmadığına görə od qalayar, tüstü çıxardırdılar. Bütün canlılar artdığı kimi, ağcaqanadlar da artır”.

**Pediatr Vaqif Qarayev isə valideynləri, körpələri və azyaşlı uşaqları ağcaqanadlardan qorumaq üçün düzgün vasitələr seçməyə çağırdı:** “Ağcaqanad dərmanları kimyəvi maddələrdir və onlar uşaq orqanizmi üçün zərərlidir. Xüsusilə uşağın sinir sisteminə ziyanlı təsiri var. Ona görə bu dərmanlardan istifadə etdikdə uşaq otaqda olmamalıdır. Uşaq həmin hava və tüstü ilə nəfəs almamalıdır. Ağcaqanadları öldürdükdən sonra otağın havası dəyişdirilməli, yalnız bundan sonra uşaq otaqda yatmalıdır. Bu dərmanlara südəmər yaşlı uşaqlar daha həssasdır, onları bu zərərli təsirlərdən mütləq qorumalıyıq. Ağcaqanad dərmanı həm də allergik problemləri kəskinləşdirir. Bəzən astmatiklərdə ağır tutmalar yaradır. Bəzən bədəndə köpüşük şəkilli səpkilər yaradır. Bu hallar təhlükəlidir və mütləq həkimə müraciət etmək lazimdır”.

**Xəstəliklərə gəlincə, pediatr bildirdi ki, ağcaqanadın xüsusi növü var və onlar uşaqları, eləcə də böyükləri dişlədikdə malyariyaya yoluxdura bilərlər:** “Xüsusilə aran zonasında bu növ ağcaqanadlar çoxdur, ona görə orda malyariyaya yoluxma ehtimali yüksəkdir. Onlarla mübarizə məsələsinə gəldikdə, əhali əsasən qapı-pəncərəni torla bağlayır, amma bu üsul həmişə effekt vermir. Evlərin zirzəmisində, durğun su olan yerlərdə vaxtaşiri dezinfeksiya işləri aparılmalıdır. Zirzəmilərdə ağcaqanaddan başqa bit-birə də kifayət qədərdir. Əvvəllər MİS-lər bu işlə pis-yaxşı məşğul olurdu, indi isə heç kim məşğul olmur. Ona görə əlac yenə insanlarin öz şəxsi təşəbbüsünə qalir, kim təmizlətdirə bilirsə təmizlətdirir”.

❑ Nərgiz LİFTİYEVA

**Başsağlığı**

**Başxanım Abbasova və Sərəncam İbrahimov tanınmış həkim Stella Abbasovanın vəfatından kədərləndiklərini bildirir, mərhumənin ailəsinə və yaxınlarına başsağlığı verirlər. Allah rəhmət eləsin!**

**Bu gün Bakının "İnter" klubu Avropa Liqasının ikinci təsnifat mərhələsində Lüksemburqun "Fola" komandası ilə qarşılaşacaq. İlk təsnifat mərhələsində Moldovanın "Milsami" klubuna öz meydanında 2:1 qalib gələn lüksemburqlular cavab matçında 1:1 hesabına nail olaraq ilk dəfə Avroliqada ikinci mərhələyə keçiblər. "İnter" isə məlum olduğu kimi, birinci təsnifat mərhələsində Serbiyanın "Mladost" klubu ilə qarşılaşıb. İlk oyunda 3:0 hesablı qələbə qazanan bakılılar cavab matçında da rəqibini üstələyib - 2:0.**






# 111 yaşlı klub "İnter"ə qarşı

## Ciddi maliyyə sıxıntıları yaşayan Bakı klubu Ceff Ştrasserin "Fola"sını yarı yolda qoya biləcəkmi?

"İnter" klubu "Miladost"a qarşı göstərdiyi hər iki oyunda çox yaxşı təsir bağışlayıb. Klubun maddi çətinlikləri olsa da, komandanın mübariz ruhu bu görüşə olan ümidləri artırıb. Oyun ərəfəsi isə qanqaraldıcı xəbərlər var...

Mediada yayılan xəbərlərə görə, klubun üzvləri yay ayında hələ maaş almayıblar. Klubun stadion və qərargah probleminin olması ilə bağlı da xəbərlər yayılıb ki, belə əhəmiyyətli oyun ərəfəsi bu, çox üzücü haldır. "İnter"in problemlərinin kökü indi həbsdə olan keçmiş rəhbərlik səbəbindən o qədər qəlizləşib ki, mütləq AFFA rəhbərliyinin həm dəstəyinə, həm də müdaxiləsinə ehtiyac yaranıb. Komandanın 28 yaşlı hücumçusu Rauf Əliyevin matç ərəfəsi dediyi sözlər "İnter"in hazırda düşdüyü vəziyyətə tamamilə adekvatdır: "Axsaya-axsaya irəliləyirik".

Əlbəttə ki, bu cür vəziyyət Avroliqada mübarizə aparan klub üçün ən əvvəl diskomfort mühit yaradır. Dünya klubların yay transferlərində "dodaq uçuqladan" qiymətlərinə baxıb, bizim "İnter"in halına doğrudan da acımamaq olmur. Ona görə bu vəziyyətdə klubdan yaxşı oyun ummaq deyil, ancaq və ancaq Azərbaycan adına fədakarlıq gözləmək olar. Unutmaq lazım deyil ki, futbolçuya ayağından və topundan başqa para qazandıracaq heç bir məşğuliyyəti yoxdur. Və oynamaq üçün pul verən də yoxdursa, o zaman "İnter"in oyunçularının psixoloji durumunu anlamaq çətin deyil. Ümid edək ki, bu mərhələni də keçdikdən sonra Bakı klubunun maddi problemləri qismən də olsa düzələcək.

### Sən kimsən, "Fola"?

Ötən sayımızda da qeyd etmişdik ki, "İnter" serblərlə oyununu "Fola" klubu ilə qarşılaşmada da göstərə bilsə, növbəti mərhələni bəlkə də elə bugünkü matçla qarantiyalıya bilər.





"Yeni Müsavat" oxucuları üçün "Fola" klubu haqda internet resurslarından əldə etdiyimiz məlumatları bölüşəcəyik.

Fransız dilində "Cercle Sportf Fola Esch" adlanan "Fola" klubu Lüksemburqun Eş şəhərini təmsil edir. Klubu 1906-cı ildə-yəni düz 111 il əvvəl ingilis dili müəllimi Jan Peder təsis edib. Ev oyunlarını "Emil Mayriş" adına 3900 nəfərlik şəhər stadionunda keçirən "Fola" altıqat ölkə çempionudur. Çempionluğun 4-ünü 1917 və 24-ci illər aralığında qazanıb. Üç dəfə isə ölkə kubokuna sahib olub. Bundan sonra komanda aşağı divizionda oynayıb ki, yalnız 2007-ci ildə yüksək liqaya qayıda bilib. Yüksək liqada isə çempionluğu 2013-cü ildə əldə edə bilib. Çempionlar Liqasında ilk sınağı Zaqrebin titullu "Dinamo"suna qarşı keçirən "Fola" uğursuzluğa düçar olub. Zaqreb təmsilçiləri iki oyunda klubun qapısından 6 cavabsız top keçiriblər. 2014-2015-ci sezonunda divizionun qalib olmuş klub yenə də Avropa turnirində mərhələ keçə bilməyib. Bu il divizionda 3-cü yeri tutan "Fola" "Zirə"nin mübarizədən kənarlaşdırdığı ölkə çempionu "Differdanj"dan 9 xal geridə qalıb.

Lüksemburqun daxili çempionatının tarixinə də nəzər salaq. Bu ölkədə daxili çempionat 1910-cu ildən keçirilir. 1913-cü ildə Birinci Dünya müharibəsi səbəbindən çempionatda fasilə yaranıb. 1932-ci ildən "Primyer Liqa" adlanan çempionat 1975-ci ildə "Şərəf divizionu" kimi adını dəyişib. 2011-ci ildək isə sponsor səbəbindən çempionat "Fortis Liqa" adı altında keçirilib. 2011-ci ildən isə Lüksemburq Milli Divizionu adlanır. Milli Divizionda hazırda 14 klub mübarizə aparır. 2006-cı ilədək divizionda 12 klub təmsil olunub.







### Almaniya liqasında oynamış baş məşqçi

Komandanın baş məşqçisi Ceff Ştrasser 1974-cü ildə Lüksemburqda anadan olub. 19 yaşında artıq karyerasını Lüksemburqdan kənarda quran Ştrasser 1993-99-cu illərdə "Meçe" klubunda oynayıb. 1999-cu ildən adlı-sanlı klublar artıq onunla maraqlanmağa başlayıb. 1999-cu ildə o, bundesliqa "Kayzerslautern"i ilə müqavilə bağlayıb. 2002-ci ildə isə "Borussiya"ya keçib ki, bir neçə il burada uğurla mərkəz müdafiəçisi mövqeyində oynayıb. Ümumilikdə o, Almaniya çempionatında 194 oyun keçirib. 2006-cı ildə Fransaya qayıdan Ştrasser "Strasbur" və "Meç" klublarında da oynayıb. 2009-cu ildə isə "Fola"ya keçsə də, burada çox qalmayıb, bu dəfə isə İsveçrənin tanınmış klubu olan "Qrassxoperrs"ə keçib.

Milli komandada ilk dəfə 1993-cü ildə debüt edən Strasser ilk oyunu Yunanıstana qarşı keçirib. O, 2010-cu ildə Azərbaycanla yoldaşlıq görüşündə qapımıza top da vurub. Ümumilikdə millidə 98 oyun keçirən Ceff bu nəticəsi ilə Lüksemburq rekordçusu hesab olunur. "Fola"nı 2010-cu ildən çalışdıran mütəxəssis Lüksemburq milli komandasında müdafiəçi mövqeyində oynayıb. Karyerasını başa vurduqdan sonra "Fola"nın məşqçisi olan Ştrasserin rəhbərliyi dövründə klub 83 ildən sonra ilk dəfə Lüksemburq çempionluğunu bayram edib. Vikipediya məlumatında onun haqqında yazılır ki, məşqçi həm də teleşərhçi kimi fəaliyyət göstərir.

### "İnter" nə düşünür?

"İnter"in oyunçuları "Fola" haqda danışarkən kifayət qədər ehtiyatlı olmağa üstünlük veriblər. Məsələn, Rauf Əliyev deyib ki, Lüksemburqda son zamanlar futbol inkişaf edir. Komandanın kapitanı Nizami Hacıyev isə nəticə barədə əvvəlcədən danışmağın kluba düşmədiyini deyib. "Müəyyən çətinliklərimiz var. Həm texniki, həm də maddi baxımdan sıxıntılar var ki, onları yoluna qoymaq lazımdı. Yaxşı nəticə qazanmaq olar" deyə, kapitan vurğulayıb.

Görüşün baş hakimi İsrail Futbol Federasiyasından Eytan Şmuleviç olacaq. Ona Nisan Davidi və Saqi Mazamber köməklik edəcək. Dördüncü hakim funksiyasını Daniel Bar - Natan yerinə yetirəcək.

**Qeyd edək ki, "İnter" - "Fola" oyunu bu gün saat 20:00-da "İnter Arena" da başlayacaq.**

**Uğurlar, "İnter"...**

**❑ Nazim SABİROĞLU**

YENİ MÜSAVAT

Son səhifə

N 145 (6759) 12 iyul 2017



# 14 yaşı var, amma qoca kişi kimidir...

Hindistanda yaşayan 14 yaşlı Əli Hüseyn qəribə bir xəstəliyə tutulub. Onun bədəni normal haldan 8 dəfə daha sürətlə yaşlanır və bu, proqeria xəstəliyidir. Əli özündən əvvəlki 5 qardaşını bu xəstəliyə qurban verib. Uşağın gözlərində və ürəyində sağlamlıq problemlərinin olması ilə yanaşı, saçları da çıxmır. Sözügedən xəstəlik dünyada ancaq 80 nəfərdə var və adətən 14 yaşına çatmadan insanların ölümünə səbəb olur. Əli isə həyata bağlılığı ilə həkimlərin ümidi olub. O, bütün yaşadıqlarına baxmayaraq ölümdən qorxmur. Xəstəliyi ilə bağlı danışan kiçik xəstə "ümid edirəm ki, mənim vəziyyətimdə olanlar üçün bir ümid var. Mən həqiqətən yaşamaq istəyirəm. Ölümdən qorxmuram, amma ailəmin mənə görə iztirab çəkməsini də istəmirəm. Onlar üçün daha uzun yaşamaq istəyirəm".

Alinin ata-anası xala uşağıdır. Ailələrinin istəyi ilə evlənən cütlük daha öncə 2-si oğlan, 3-ü qız olmaqla 5 uşağını bu xəstəliyə qurban verib. Onlar "həkimlər daha öncə desəydilər, valideyn olmaq üçün cəhd etməzdik" deyiblər.

# Kompüter oyunları insan beyninə müsbət təsir etmir



**Kompüter oyunlarının insan beyninə müsbət təsir etməsi ilə bağlı iddia öz təsdiqini tapmayıb. Berlin və Stanfordlu alimlər kompüter oyunları hazırlayan firmaların reklamlarında tez-tez istifadə etdikləri və müştərilərə təsir edən "mütəxəssislər tərəfindən hazırlanıb" cümləsinin həqiqəti əks etdirmədiyi nəticəsini əldə edib. Müxtəlif ölkələrdən 70-dən artıq nevropatoloq və psixoloq aydınlaşdırıb ki, beyin gimnastikasını təmin edən kompüter oyunları yaşlılıqla bağlı zehni qabiliyyət faizini aşağı salmır, amma heç yuxarı da qaldırmır. Oyunlar insan yaddaşını əsla gücləndirmir.**

Max Planck İnstitutundan Ulman Lindenberger fiziki olaraq aktiv olan, sosial həyata qatılan və zehni olaraq da oyaq qalan insanların zehni baxımdan daha sağlam yaşlanma şansının olduğunu deyib. Beyin və davranışların irəliləyən yaşlarda da idmana, gimnastikaya öyrəşdirməyin mümkünlüyü də elmi araşdırmaların nəticələri sırasındadır.

# İngiltərədə ilk kişi ana

**İngiltərədə yaşayan Hayden Kross əməliyyatla kişi olmadan öncə bir gün ana olmağa qərar verib. Bunun üçün də facebookdan bir sperma donorunun yardımı ilə hamilə qalıb. Daha sonra cinsiyyət dəyişdirən və hamilə qalan Kross İngiltərədə doğuş edən ilk kişi ünvanını qazanıb.**

Bir müddət öncə cinsiyyət dəyişdirib kişi olan 21 yaşındakı Hayden Kross gələcəkdə hamilə qalmaq üçün öz yumurtalarının dondurulmasını istəyib. Amma həkimlər neqativ cavab verib. Kross facebookda tapdığı bir donorun spermaları ilə hamilə qalıb, bir qız uşağı dünyaya gətirib.

Bütün dünyada manşetlərə çıxan Kross doğuş edən ilk ingilis kişi adını qazanıb. Süd vəziləri ilə vidalaşan, cinsiyyət dəyişdirmə prosesini tamamlamağı planlaşdıran Kross "dünyada uşaq sahibi olmaq gözəl bir duyğudur" deyib. Onun yaşadıqları İngiltərə mediasında geniş yer alıb və sosial mediada da ən çox müzakirə olunan mövzular sırasına girib.

Dünyaya gələn qızının gələcəkdə Hayden Krossa necə müraciət edəcəyi də müzakirə mövzusudur. Kimlərsə "ana", bəziləri isə "ata" deməli olduğunu iddia edir. Amma bəzilərinə görə, körpə ona gələcəkdə həm "ana", həm də "ata" deyə bilər.







# Öz sevimli atını yedi - heç kimə verməmək üçün...

**Novosibirskin Karasuks rayonunda yaşayan bir kişi Orlik ləqəbli atını yeyib. Buna səbəb kişinin öz atını məhkəmə nəzarətçilərinə vermək istəməməsi olub. Daha öncə məhkəmə tərəfindən ata həbs qoyulubmuş. Novosibirsk sakini 18 min rubl məbləğində olan borcunu ödəyə bilməediyi üçün bu aqibətlə üzləşib.**

Atı borcunu ödəyənə qədər sahibinin yanında saxlamağa icazə veriblər. Amma sonuncu dəfə adı açıqlanmayan at sahibinin yanına gələn məhkəmə nəzarətçiləri sonuncunun "atı kəsib yemişəm" etirafı ilə qarşılaşıblar. Qanunlar heyvan sahibinə qarşı cinayət işi açılmasına və onun həbs olunmasına imkan verir. Son məlumatlara görə, sahibi son nəticədə borcunu ödəyib. Amma onun heyvanı kəsib yeməsi 2 ilə qədər azadlıqdan məhrum olunması ilə nəticələnə bilər. Sahibi isə etiraf edib ki, o, sevimli atını borc ucbatından məhkəmə nəzarətçilərinə vermək əvəzinə onu kəsib yeməyi tərcih edib.




**QOÇ** - Qarşınızda böyük perspektivlər durur. Hansı addım atacağınızdan asılı olan gələcək situasiyalar məsuliyyət hissinizi də artırmalıdır. Ağlınız kəsməyən işlərə ciddi yanaşmayın.

**BUĞA** - İstirahət haqqında düşünməyin. Çünki indiki məqamda bütün perspektivləriniz aktivliyinizdən asılıdır. Qarşıdakı həftədə görəcəyiniz işləri indidən planlaşdırın. Maraqlı görüşlər də labüddür.

**ƏKİZLƏR** - İxtiyarınızda olan bu təqvim sizin üçün o qədər də rəngarəng keçməyəcək. Yaxın olduğunuz şəxslərlə münaqişəniz gözlənilir. Fəaliyyətdə də xoşagəlməzliklər mümkündür. Odur ki, tədbirli olun.

**XƏRÇƏNG** - Hər mənada əhəmiyyətli gündür. Bir tərəfdən çoxdan görmədiyiniz adamlarla rastlaşmağınız, digər tərəfdənsə qarşılıqlı münasibətlərdə rəvan davranışlar sizə rahatlıq bəxş edəcək.

**ŞİR** - Əksər sahələrdə sevindirici hadisələrlə rastlaşma ehtimalınız var. Lakin bu, maliyyə məsələləri ilə bağlı olmayacaq. Hər halda ovqatınıza mənfi təsir göstərən amil gözlənilmir.

**QIZ** - Bəzi cəhdləriniz uğursuzluqla nəticələnsə də, buna görə qəmlənməyə dəyməz. Çünki Göy qübbəsi nahardan sonra sizə gözlənilməz sevinc bəxş edəcək. İşdə uğurlarınız da mümkündür.

**TƏRƏZİ** - Əsas enerjinizi sevgi münasibətlərinə yönəldin. Çünki yeganə uğurunuz bu sahə ilə bağlı olacaq. Fəaliyyət zəminində isə hansısa irəliləyiş gözləməyə dəyməz. Yalan danışmayın.

**ƏQRƏB** - Astroloji göstəricilər saat 18-ə qədər uğurlu məqamlar yaşayacağınızı bəyan edir. Sonrakı müddəti isə neytral şəkildə başa vurun. Bu gün varlanma ehtimalınız böyükdür.

**OXATAN** - Bu gün sizə mütləq kimsə kənardan dəstək verməlidir. Yoxsa passivliyiniz aradan qalxmayacaq. Pulla bağlı problemlərinizin həllinə çalışın. İctimai yerlərdə az görünün.

**OĞLAQ** - Ciddi sınaqlarla baş-başa qaldığınızı nəzərə alan ulduzlar hər hansı riskin yolverilməz olduğunu vurğulayır. Qərar çıxararkən mövcud vəziyyəti və imkanlarınızı gözönünə gətirin.

**SUTÖKƏN** - Yaxşı olar ki, ağır fiziki işlərə ara verəsiniz. Əsas gücünüzü diplomatik görüşlərə həsr edin. Mənfi enerjili Ay axşam saatlarına qədər bürcünüzdə qərar tutduğu üçün daha diqqətli olun, xüsusən də səhhətlə bağlı.

**BALIQLAR** - Ağır fiziki işlərə bir qədər ara verməyiniz tələb olunur. Əks təqdirdə səhhətinizdə mənfi fəsadlar baş qaldıra bilər. Nahardan sonra şəxsi büdcənizi artırmaq üçün imkanlar qazanacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Dənizin içində, balinanın üstündə qaldı



**Avstraliyada gənc bir adam suda sürüklənən ölü bir balinanın üzərinə çıxmış vəziyyətdə görüntülənib. İşin ən maraqlı tərəfi isə balinanın ətrafında köpək balıqlarının üzməsi olub. Harrison Villiams adlı gənc qayığı ilə dənizdə tura çıxdığı zaman acı çəkdiyini düşündüyü balinaya yardım etmək üçün suya hoppanıb. Amma balinanın yanına gəldikdən sonra ölü olduğunu anlayan Villiams onun üstünə çıxanda qəribə mənzərə ilə qarşılaşıb. Məlum olub ki, yaralı balinanın ətrafındakı köpək balıqları onu didmək üçün növbəyə dayanıblar. Gənc bu mənzərədən qorxuya düşdüyü üçün qışqırmağa başlayıb. Onu başqa bir gəmidəki heyət azad edib.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100